

## İranda terror

### 5 nəfər ölüb, 15-i yaralanıb

**İranın Xuzistan əyalətində baş verən terror aktında yaralananların sayı 15 nəfərə çatıb.**

APA-nın Tehran bürosunun məlumatına görə, İranın Xuzestan əyalətinin İze bölgəsində naməlum şəxslər tərəfindən insanlara və polislərə atəş açılıb. Ölənlər arasında polislər də var.

Atəş nəticəsində 5 nəfər ölüb, 15 nəfər yaralanıb.


№ 209 (5730), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 noyabr 2022-ci il (cümə axşamı)




## Tibdə inqilab, hərəkət edəcəklər

### Alimlər iflicin müalicəsini tapıblar

**Çağdaş dünyada ən geniş yayılmış xəstəliklərdən biri olan şəkərli diabetin müalicəsində yeni-yeni üsullar kəşf edilir, dərmanlar istehsal olunur.**

Məlumdur ki, şəkərli diabet bir çox hallarda insulta səbəb olur, nəticədə aşağı ətraflar iflic olur, insan hərəkətliliyini itirir. İsveçrə alimləri iflicin müalicəsini tapıb. Alimlərin sinir hüceyrələrinin kəşfi nəticəsində 9 xəstəyə yenidən addım atmaq imkanı yaranıb. İsveçrə Texnologiya İnstitutunda aparılan araşdırmalarda sinir hüceyrələri xüsusi texnologiya ilə stimullaşdırılıb.

Fiziki müalicə ilə birləşdirilən bu üsul sayəsində 29-41 yaş arası iflic olan xəstələr ayağa qalxa biliblər.

(səh.7)



## Fransa ilə münasibətlərə yenidən baxılmalıdır

### Milli Məclis Fransa Senatının qətnaməsi ilə bağlı Bəyanat qəbul edib

**Milli Məclisin dünənki iclasında Fransa Senatının Azərbaycan əleyhinə qətnamə qəbul etməsi kəskin şəkildə tənqid olunub. Bəzi deputatlar Fransa ilə münasibətlərə yenidən baxmağı təklif ediblər. Müzakirələrdən sonra parlament Fransa Senatının qətnaməsi ilə bağlı Bəyanat qəbul edib.**

Bəyanatda vurğulanıb ki, Fransa Senatının hər iki palatasında qəbul edilən sənədlər Azərbaycan və Fransa arasında münasibətləri, o cümlədən 1993-cü ildə Fransa və Azərbaycan arasında imzalanan müqavilənin bəndlərini pozur.

Qeyd olunub ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə hörmət edilməlidir...

(səh.2)

## Ceyhun Bayramov da dəvətlidir

### Tehranda 6 ölkənin xarici işlər nazirlərinin iclası keçiriləcək



**Tehranda Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya, İran və Gürcüstan xarici işlər nazirlərinin iclası keçiriləcək.**

Bu barədə İran XİN məlumat yayıb.

Məlumatda qeyd olunub ki, İran xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan azərbaycanlı həmkarı Ceyhun Bayramovu da regional məsələlərin diplomatiya yolu ilə həlli məqsədilə yeni əməkdaşlıq formatı olan 3+3 çərçivəsində Tehranda keçiriləcək iclasa dəvət edib.

# Sülh müqaviləsi üçün tarixi imkan yaranıb

### ABŞ dövlət katibi Prezident İlham Əliyevə zəng edib



**Noyabrın 16-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

**Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.**

ABŞ dövlət katibi bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-ın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev dövlət katibi Antoni Blinkenin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasının və ABŞ-ın bu istiqamətdə göstərdiyi səylərin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

(səh.2)

## Əhali reallığı dərk etməyə başlayıb

### Artıq vətəndaşlar metroya və ictimai nəqliyyata üstünlük verir





**Bu ilin yanvar-oktyabr aylarında "Bakı Metropoliteni" 167 358,8 min sərnişin daşıyıb ki, bu da illik müqayisədə 3 dəfə çoxdur.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2021-ci ilin yanvar-oktyabr ayları ərzində metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 55 625,1 min nəfər olub.

Bakıda metropolitenində xətlərin uzunluğu 36,6 kilometrə, sayı 3-ə, stansiyalarının sayı isə 25-ə bərabərdir.

(səh.7)



## Ermənistan Müdafiə Nazirliyinin 4 əməkdaşı həbs edilib

**Ermənistan Müdafiə Nazirliyi əməkdaşlarının rüşvət alması faktı üzrə istintaq araşdırmaları nəticəsində 4 nəfər həbs edilib.**

APA xəbər verir ki, bu barədə "Sputnik Armenia" məlumat yayıb. Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin xəbərinə görə, ümumilikdə 3500 ABŞ dolları rüşvət qarşılığında MN əməkdaşları tərəfindən hərbçilərin müxtəlif vəzifələr təyinatı barədə təqdimatlar verilib.

Faktla bağlı istintaq araşdırması davam edir.

## İran böyük savaşın astanasındadır

### Ayağa qalxan xalq geri çəkilmək niyyətində deyil



**"İranda son dönəmlər sosial zəminində başlayıb, siyasi anlam qazanan hərəkətlənmə mövcudur. Prosesi yatırmaq üçün İran hökuməti heç bir addım atmayıb. Sadəcə, müxtəlif bəhanələrlə problemin qaynağını başqa yerdə axtarır".**

Bunu "Şərq"ə açıqlamasında Finlandiyada yaşayan Güney azərbaycanlı Çingiz Göytürk deyib.

(səh.4)

## Ermənistan silahlandıqca sülhdən uzaqlaşır

### Vəziyyətə uyğun olaraq sülhə məcburetmə mexanizmi işə salına bilər



Noyabrın 15-i saat 21:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

(səh.3)



## Fransa ermənilərə bağlılığın bir daha sübut edir

### Qətnamə erməni lobbisinin təsiri nəticəsində gündəmə gəlib

(səh.3)



## Qadının 4 dəfə ərə getməsinə heç kəs qadağa qoya bilməz

### Ancaq bizim cəmiyyətdə evlilik qərarı alan valideynlərin uşaqlarla məsləhətləşmək adəti yoxdur

(səh.7)

# Sülh müqaviləsi üçün tarixi imkan yaranıb

## ABŞ dövlət katibi Prezident İlham Əliyevə zəng edib



**Noyabrın 16-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

ABŞ dövlət katibi bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-ın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev dövlət katibi Antoni Blinkenin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasının və ABŞ-ın bu istiqamətdə göstərdiyi səylərin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Bununla belə, dövlətimizin başçısı qeyd edib ki, bu istiqamətdə göstərilən səylərə və aparılan danışıqlara baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən son günlərdə səsləndirilən ziddiyyətli bəyanatlar iki ölkə arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin irəli aparılmasına mənfi təsir göstərir.

Antoni Blinken Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın olduğunu qeyd edərək ABŞ-ın bu istiqamətdə səylərini davam etdirəcəyini bildirib.

Telefon danışığı əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə növbəti görüşün keçirilməsi və etimad quruculuğu tədbirlərinə dair fikir mübadiləsi aparılıb.

# Fransa ilə münasibətlərə yenidən baxılmalıdır

## Milli Məclis Fransa Senatının qətnaməsi ilə bağlı Bəyanat qəbul edib

**Milli Məclisin dünənki iclasında Fransa Senatının Azərbaycan əleyhinə qətnamə qəbul etməsi kəskin şəkildə tənqid olunub. Bəzi deputatlar Fransa ilə münasibətlərə yenidən baxmağı təklif ediblər. Müzakirələrdən sonra parlament Fransa Senatının qətnaməsi ilə bağlı Bəyanat qəbul edib.**

Bəyanatda vurğulanıb ki, Fransa Senatının hər iki palatasında qəbul edilən sənədlər Azərbaycan və Fransa arasında münasibətləri, o cümlədən 1993-cü ildə Fransa və Azərbaycan arasında imzalanan müqavilənin bəndlərini pozur. Qeyd olunub ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə hörmət edilməlidir: "Erməni qruplarının Azərbaycanın Fransadakı səfirliyinə qarşı faşist əməllərinin qarşısının alınmaması Fransanın Ermənistanı müdafiə etdiyini göstərir. Senat Fransanın BMT Təhlükəsizlik Şurasının üzvlüyündən öz çirkin əməlləri üçün istifadə etdiyini sübut edir. Qətnamədə Laçın dəhlizi ilə bağlı bənd bu qətnamə müəlliflərinin yerdəki vəziyyətdən nə qədər bixəbər olduğunu göstərir. Fransanın bu addımı Cənubi Qafqazda iki ölkə arasında bütün münasibətlərə zərbə vurur".



**"Həmin qətnamə kağız parçasından başqa bir şey deyil"**

**Milli Məclisin üzvü Kamran Bayramov deyib ki, Fransa Senatı Azərbaycana qarşı qərəz və ədalətsizlik nümayiş etdirir. Millət vəkili qeyd edib ki, Senatda qəbul edilən qətnamə Fransadakı türkofob və erməni lobbi dairələrinin beyinlərinin məhsuludur:** "Dünyada müxtəlif vəhşiliklər törətmiş, soyqırımı həyata keçirmiş Fransa indi Azərbaycana dərs keçməyə çalışır. Bu dərsləri Ermənistana keçmək lazımdır. Fransa Senatının qətnaməsinin heç bir hüquqi qüvvəsi yoxdur, o, kağız parçasından başqa bir şey deyil. Fransanın bu addımları Cənubi Qafqazda sülh istəmədiyini göstərir. Fransanın "demokratiyanın", "ədalətin" mərkəzi olaraq, belə çıxış etməsi onun nə qədər ikiüzlü olduğunu göstərir. Fransa həm də ATƏT-in Minsk qrupunun üzvü olmasına baxmayaraq, ermənipərəst olduğunu sübut etdi. Belə qəbul olunur ki, Fransa Azərbaycanla dost, tərəfdaş ölkə deyil". O bildirib ki, Fransa ikiüzlülük, riyakarlıq nümunəsidir: "Fransa Senatının qəbul etdiyi qətnaməyə siyasi qiymət verilməli və Azərbaycanın Fransa ilə münasibətlərinə yenidən baxılmalıdır".

**"Özünü yeni "Napoleon" hesab edənlər tarixə diqqətlə baxmalıdır"**

**Deputat Tural Gəncəliyev isə bildirib ki, Fransa Senatının qətnaməsi hüquqi cəhətdən absurddur:** "Çünki Azərbaycan öz ərazisində yerləşən qoşunlarını geriyə çəkməyəcək. Yaxşı olar ki, Fransa Sarbonna Universitetindən Hüquq fakültəsinin tələbəsini dəvət etsin. O tələbə izah etsin ki, həmin qətnamə hüquqi cəhətdən mənasız sənəddir". T.Gəncəliyev qeyd edib ki, Fransa xarici siyasətini müəyyən edən insanlar Azərbaycanla münasibətləri düzgün nəzərdən keçirməlidir: "Özünü yeni "Napoleon" hesab edənlər tarixə diqqətlə baxmalı və demokratik çıxış etməlidir: "Fransanın Azərbaycana qarşı çıxışı beynəlxalq hüquqa ziddir. Onlar bir daha sübut etdilər ki, ermənipərəst mövqedən vaz keçməyəcəklər".

**"Fransa parlamentinə Şuşadan cavab verməliyik"**

**Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Vətən müharibəsi təkcə hərbi meydanda deyil, həm də dövlətlərin siyasi simasının açılığına görə böyük qələbədir. Fransa Senatının qərarı da 2020-ci ilin noyabrın 25-də Qarabağı tanımağa çağıranların 44 günlük müharibədəki məğlubiyyətidir:** "Qətnamənin preambulasında BMT Nizamnaməsinə istinad olunur. Baxın, dünya təhlükəsizliyinə cavabdehlik daşıyanlar millətləri necə birləşdirir? Senatın qərarında ikinci bənd Türkiyədən qorxunu nümayiş etdirir. Yunanıstanda olduğu kimi, Ermənistanla sərhədlərə qoşun yığıb, Gümrüdən Rusiya hərbi qüvvələrini çıxarıb Qafqazı tutmaq istəyirlər. Xalqımız bilməlidir ki, dünən Fransa Senatında qərar çıxaranlar İstanbulun mərkəzində qanlı terrorun sifarişçiləri ilə eyni qüvvələrdir. Siz Şarli Hebdo qətlindən sonra Parisdə çiyin-çiyinə dayanan dövlətləri Türkiyə və Azərbaycanla bir sırada görməzsiniz. Lakin o qətnamələr Vətən müharibəsinin nəticələrini dəyişmir, əksinə, erməni xalqına növbəti zərbədir. Çünki ondan yalnız bir ovuc siyasi avantürist fayda götürür. Çıxış yolu səfirliyə hücum etmək, yumurta və pomidor atəşinə əl atmaq deyil. Ərzağa heyifdir. "Total" şirkətini Abşeron yatağından qovmaq da ölkəmizin iqtisadi izolyasiyasını istəyənlərin xeyrinədir. Əksinə, kampaniyanın resurslarını Avropaya və Fransa elitasına qarşı yönəltmək gərəkdir. Biz Fransa parlamentinə Şuşada yeni bəyannamələrlə cavab verməliyik".

**"Bu qətnamə Fransanın Azərbaycana qarşı qeyri-səmimi, riyakar və qərəzli olduğunu göstərir"**

**Deputat Aydın Hüseynov deyib ki, Fransa Senatında qəbul edilmiş qətnamə Fransanın ermənipərəst mövqeyinin sübutudur:** "Hər nə qədər vasitəçilik təşəbbüsləri göstərən kimi görünmək istəsə də, bu ölkə hər zaman Ermənistanı dəstəkləyib. Senatın qəbul etdiyi qətnamə isə nəinki Ermənistanı dəstəkləməkdir, bütün beynəlxalq hüquq və prinsiplərə ziddir. Başdan-ayağa böhtan və iftiralarla dolu qətnamədə birmənalı şəkildə Azərbaycana qarşı düşmən münasibət var. Azərbaycana Ermənistan torpaqlarından geri çəkilmək, Laçın dəhlizindən çıxmaq kimi çağırışlar, qondarma DQR-in tanınması kimi cəfəng fikirlərdən ibarət bu kağız parçası Fransanın həqiqi simasını göstərir". Deputat vurğulayıb ki, qətnamə həm də Azərbaycanın daxili işinə müdaxilədir: "Qarabağın erməni əhalisinin hüquqları Azərbaycanın daxili məsələsidir. Tarixi qara ləkələrlə dolu olan bir ölkənin Azərbaycanla bağlı belə absurd ittihamlar irəli sürməsi də ironik və gülüncdür. Fransa öz tarixinə nəzər salsın. 50-dən artıq dövlətin ərazisini işğal etmiş bu müstəmləkəçi ölkə işğal etdiyi ölkələrdə yaşayan milyonlarla insanı qətlə yetirib, soyqırımı törədib, həmin əraziləri talan edib". Deputatın sözlərinə görə, o qədər də uzaq olmayan qanlı tarixini unudan Fransanın başqalarına humanizm, demokratiya, hüquq dərsi keçməyə haqqı yoxdur: "Bütün bunlara baxmayaraq, bu ölkənin hələ də vasitəçilik iddiası yumşaq desək, həyasızlıqdır. Fransa bu qətnamə ilə bütün vasitəçilik imkanlarını itirdi. Bu kağız parçasının bir hüquqi qüvvəsi olmasa da, Ermənistandakı revanşistləri və separatçıları cəsarətləndirməyə və məsələnin yenidən hərbi müstəviyə keçməsinə xidmət edir. Halbuki, bu ölkənin prezidenti Emmanuel Makron qətnamə qəbul edilməmişdən əvvəl Azərbaycan prezidentinə zəng edərək "tərəfsiz vasitəçilikdən", Fransanın Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə "töhfə vermək istəyindən" danışmışdı. Bu, bir daha Fransanın Azərbaycana qarşı qeyri-səmimi, riyakar və qərəzli olduğunu göstərir".

**"Fransadakı səfirimiz geri çağırılsın..."**

**Deputat Fəzail Ağamalı Azərbaycanın Fransadakı səfirinin geri çağırılmasını təklif edib. O bildirib ki, Fransanın son vaxtlar Azərbaycana qarşı tutmuş olduğu qərəzli mövqe xalqımız tərəfindən etirazla qarşılanır:** "Bu qətnamə Makronun bir müddət əvvəl Fransa telekanallarından birinə müsahibəsinin davamı kimi qiymətləndirilməlidir. Qətnamədə Azərbaycana embarqo qoyulması təklif edilir. Əslində Senat və Makron Avropa İttifaqı daxilində separatizmin əsasını qoyurlar. Çünki Avropa İttifaqı və Azərbaycan arasında enerji ixracı ilə bağlı strateji sənəd bu il imzalanıb. Fransa Senatı qətnamədə bizə qarşı absurd, qərəzli mövqe ortaya qoymaqdan çəkinmir, utanmır. Ərazi bütövlüyümüzə qəsd edən Ermənistanın yanında olduğunu Fransa birmənalı şəkildə ifadə edir. Belə faktlar çoxdur, Makronun dövründə bu faktlar daha çox artıb. Bu gün Makron və Fransa UNESCO-ya da təsir göstərir və Azərbaycana qarşı mövqe ortaya qoyur. UNESCO-nun tarixində olmayan addımı Azərbaycanın birinci xanımı Mehriban Əliyeva dünən atdı. Təklif edirəm ki, bizim Fransa ilə münasibətlərimizə yenidən baxılsın, səfirimiz geri çağırılsın. Fransa ilə bizim diplomatik münasibətlərimizi davam etdirməyin mənası yoxdur".

İsmayıl Qocayev

# Mədəniyyət nazirinə yeni səlahiyyətlər verilib

**Azərbaycanın mədəniyyət nazirinə yeni səlahiyyətlər verilib. Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Fərmana əsasən, nazirə dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsi təmin etmək səlahiyyətləri verilib.

# "Mən bu sənədin əleyhinə səs verdim"

## Fransa Senatının üzvü: "Azərbaycana qarşı qəbul olunan qətnamənin heç bir qüvvəsi yoxdur"



**"Fransa Senatında Azərbaycana qarşı qəbul olunan qətnamənin heç bir qüvvəsi yoxdur."**

Bu fikirləri "Report"un yerli bürosuna Fransa Senatının üzvü Natali Qule bildirib.

"Mən bu sənədin əleyhinə səs verdim. Çünki hər zaman olduğu kimi, Azərbaycanın haqq yolunda olduğuna əminəm. Bu qətnamə həmişə olduğu kimi, Fransadakı güclü erməni lobbisinin təsiri altında qəbul edilib", - qətnamənin əleyhinə səs vermiş yeganə Senat üzvü vurğulayıb.

O, Azərbaycana qarşı qəbul olunan qətnamənin heç bir qüvvəsinin olmadığını bildirib: "Bu qətnamənin Azərbaycana heç bir mənfi təsiri olmayacaq. Bu sənəd məcburi xarakter daşımır. Fransa hökumətinin mövqeyini dəyişdirə bilməyəcək. Ümumiyyətlə, unutmayaq ki, vaxtilə Fransanın da həmsədri olduğu Minsk qrupu artıq mövcud deyil."

# Albaniya səfəri Avropadakı mövqeyimizi gücləndirəcək

## Vacib məqam bu bölgədə İtaliya, Serbiya, Albaniya, Yunanıstan və Türkiyə ilə tərəfdaşlıq etməkdir

**Prezident İlham Əliyevin Albaniya Respublikasına səfəri çərçivəsində Prezident Bayram Beqay ilə təkbətək görüşü olub. Görüşdən sonra liderlər mətbuata bəyanat veriblər.**



Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən etibarlı tərəfdaş kimi artıq tanınır və qiymətləndirilir: "Bizim qaz ehtiyatlarımız çox zəngindir və hazırda həm TAP, həm TANAP qaz kəmərləri vasitəsi ilə daşınmanın iki dəfəyə qədər artırılması məsələsi müzakirə olunur. Cənub Qaz Dəhlizi layihəsi cəmi iki ilə yaxındır istismardadır. Amma artıq Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Bu onu göstərir ki, buna böyük ehtiyac, tələbat var. Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən etibarlı tərəfdaş kimi artıq tanınır və qiymətləndirilir. Əlbəttə ki, biz də bu məsuliyyəti yaxşı başa düşürük".

Albaniya Prezidenti Bayram Beqay isə bildirib ki, Albaniya Azərbaycan ilə daha sıx əməkdaşlığa can atır. Onun sözlərinə görə, Albaniya Azərbaycan ilə enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və s. sahələrdə əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır. O, Azərbaycan Prezidenti İlham Əliyevin Tiranaya səfərini iki dövlət arasında münasibətlər baxımından tarixi adlandırıb.

**Enerji əməkdaşlığının çox önəmli olduğunu deyən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib ki, Cənubi Qafqaz dəhlizi Azərbaycanın ən böyük qaz layihəsidir:** "Biz Avropanın neft-qaz təchizatında və enerji təhlükəsizliyində çox mühüm rol oynayırıq. İndi isə üzü qışa doğru gedir və Rusiya-Ukrayna müharibəsinin taleyi müəyyən olunmayıb. Buna görə də gələcəkdə nələr baş verəcəyi məlum deyil.

Bu səbəblə də Avropada Azərbaycana maraq ciddidir. Türkiyədən keçən Cənubi Qafqaz qaz xətti "TAP", "TANAP" qaz ixracında çox böyük əhəmiyyət kəsb edir. Bu ixracın "Şahdəniz- 2" yatağından 2 dəfəyə qədər artırılması nəzərdə tutulur.

Xüsusən də Avropanın Cənub qisminin və Balkan yarımadasında yerləşən ölkələrin qaz təchizatının mühüm hissəsini Azərbaycan təchiz edir. Albaniya da həmin ölkələrdən biridir.

Albaniya səfəri bizə imkan verəcək ki, Avropadakı mövqeyimizi həm gücləndirək, həm də bunu uzunmüddətli davam etdirək.

Bu səbəblə də bizim üçün vacib məqam, həmin bölgədə İtaliya, Serbiya, Albaniya, Yunanıstan və Türkiyə ilə tərəfdaşlıq etməkdir. Bu həm də bizim Fransa qarşısında siyasi üstünlüyümüzdür".

Nihat Müzəffər

# Millət vəkili ekspertin təklifini dəstəklədi

## İşğaldan azad olunan bəzi kəndlərin birləşdirilməsinə ehtiyac var

**Əmlak eksperti Elnur Fərzəliyev işğaldan azad olunmuş ərazilərimizdəki bir neçə kiçik kəndin bir inzibati idarəçilikdə birləşdirilməsini təklif edir. Onun sözlərinə görə, kiçik kəndlərin birləşdirilərək böyük qəsəbələrə çevrilməsi işğaldan azad edilmiş torpaqlarımızın abadlaşdırılmasında 30 faiz qənaətə imkan verə bilər.**



Burada söhbət həmin ərazilərin bərpasının sürətli aparılması, ayrılan xərclərin minimuma enməsindən gedir: "İşğaldan azad olunmuş rayonlarımızdakı kəndlərə nəzər salsaq, işğaldan əvvəl əksər kəndlərdə əhali və mənzil sayı minimal idi. Bəzi kəndlər hətta 30-40 fərdi həyət evlərindən ibarət olub. Həmin kəndlərin hər birini yenidən qurmaq, orada yeni orta məktəb, uşaq bağçası, tibb məntəqəsi tikmək, yeni yolların çəkilməsi, qaz, su, işıq və digər kommunikasiyaların qoşulması büdcədən külli miqdarda pulların ayrılması deməkdir. Bu baxımdan hər 5-6 kiçik kəndləri birləşdirərək qəsəbələr, yaxud böyük kəndlər salmaqla, həmin xərcləri minimuma endirmək olar. Böyük qəsəbələr insan sıxlığı deməkdir. Bu isə həmin ərazilərdə ticarət sektorunun inkişafı və müxtəlif sayda yeni iş yerlərinin açılmasına səbəb ola bilər. Bu cür yanaşma ilə həm ərazilərin bərpası sürətlə aparıla bilər, həmçinin oraya köçəcək insanlarda orada yaşamağa maraq artacaq. Əlavə olaraq dövlət büdcəsi böyük məbləğlərə qənaət etmiş olacaq.

Artıq Qarabağı görmədən, lakin əslən qarabağlı olub digər şəhər tipli ərazilərdə doğulan ikinci, üçüncü nəsil formalaşıb. Onlar üçün də şəhərdən kəndə deyil, şəhərdən şəhər tipli qəsəbələrə köçüb yaşamaq daha asan olacaq".

**Millət vəkili Ceyhun Məmmədov da "Şərq"ə açıqlamasında ekspertlə həmfikir olduğunu deyib. O da hesab edir ki, işğaldan azad edilən kiçik kəndlərin bərpasına ehtiyac yoxdur:** "Təbii ki, burada 5-10 evdən ibarət olan ucqar kəndlərdən söhbət gedir. Sakinlərin sayı az olsa da, dövlət məcburdur həmin kəndə yeni yol, su, qaz, işıq xətləri çəksin. Məktəb, bağça, xəstəxana tiksin. Bütün bunlar üçün də kifayət qədər vəsait lazımdır deyə kiçik kəndlərin birbir bərpasına ehtiyac yoxdur. Kiçik kəndlərin birləşdirilərək böyük qəsəbələrə çevrilməsi işğaldan azad olunan ərazilərimizə "Böyük Qayıdış" prosesinin sürətləndirilməsi üçün də məqsədəuyğun layihədir. Hesab edirəm ki, bu təklif dövlət tərəfindən də dəyərləndirilməli və müvafiq istiqamətdə real addımlar atılmalıdır".

Şəymən

# Fransa ən böyük işğalçı dövlətdir

## Millət vəkilləri Əlcəzair soyqırımı ilə bağlı parlamentdə dinləmələr keçirilməsini təklif edir



**Milli Məclisin iclasında Fransa, İran və başqa qərəzli ölkələr əleyhinə dinləmələr keçirilməsi, sənəd qəbul edilməsi təklif olunub. Parlamentin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli deyib ki, Fransanın hərəkətləri səlib yürüşlərinin davamıdır. Deputat Fransanın düşmən dövlət elan olunmasını təklif edib:**

”Düşmənçiliyin bundan artıq səviyyəsi olmaz. Bunlar türklərə, müsəlman xalqlarına açıq nifrət edirlər. İkinci təklifim ondan ibarətdir ki, Fransadakı səfirimiz geri çağırılsın. Burada olan Fransa səfirliyi əməkdaşları ”persona non qrata” elan olunsun. Üçüncü, biz Fransanın Əlcəzairdə soyqırımı törətməsi ilə bağlı qətnamə qəbul edək”.

**Deputat Elnur Allahverdiyev bildirib ki, Azərbaycan həm hökumət, həm də qanunverici orqan səviyyəsində Fransaya adekvat cavab verməlidir:** ”Fransa vaxtilə yerli əhalinin qanı hesabına dünyanın müxtəlif yerlərində əraziləri öz tərkibinə qatıb. Bu müstəmləkələrdə xalqlar müstəqilliyə can atsalar da, Fransa dövləti tərəfindən azadlıq hərəkatları zorla boğulur. Bunlardan ikisinə diqqət yetirməyimiz vacibdir. Birincisi, Yeni Kaledoniyadır. Əhali yerlilərdən - kanaklardan və Fransadan gələnlərdən ibarətdir. Yerlilər müstəqillik tərəfdarlarıdırlar. Müstəqillik Uğrunda Milli İttifaq Partiyası Qoşulmama Hərəkatında müşahidəçi qismində iştirak edir. 2021-ci ildə Fransanın nəzarəti ilə keçirilən qurama referendumda yerli əhali iştirak etməyib. Biz Qoşulmama Hərəkatındakı sədrliyimizdən istifadə edib Yeni Kaledoniyanın müstəqillik istəyini aktuallaşdıra və üzv dövlətləri onun müstəqilliyini tanımağa səsləyə bilərik. İkincisi isə Mayottadır. Yeni Kaledoniya kimi Mayottanın da müstəqillik istəyini Fransanın müstəmləkəçi siyasəti boğur. Mayotta Komor adalarına daxildir. Baxmayaraq ki, Komor adaları müstəqil dövlətdir, Fransa Mayottanı nəzarəti altında saxlayır. Komor adaları müsəlman ölkəsidir. Mayottanın müstəqilliyinin tanınması üçün islam dövlətlərinin təmsil olunduğu və bizim də fəal iştirak etdiyimiz təşkilatlar əlverişli platformadır”.

Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qeyd edib ki, Fransa özü bu gün işğalçı dövlətdir: ”Bu barədə BMT Baş Assambleyasının qəbul etdiyi sənəd də var. Sənəddə Qəmər adalarını Fransanın tərk etməli olduğu bildirilir. Fransa hələ də Qəmər adalarından çıxmayıb. Fransa Ruandada, Əlcəzairdə soyqırımlar törədib. Biz də Fransanın müsəlmanlara qarşı törətdiyi soyqırımlarla bağlı qətnamə qəbul edək. Burada Türk dövlətlərinə biz müraciət etməliyik. Çünki qətnamədə türklər hədəf alınıb. Türk dövlətləri, islam dünyası buna öz etirazını bildirməlidir. Ən sonda biz Fransada yaşayan bütün türk kökənli 1 milyon yarıma yaxın insana, Fransada seçici olan insanlara çağırış edirik ki, seçici olaraq buna etirazınızı bildirin”.

**Deputat Ramin Məmmədov qeyd edib ki, keçmişində Əlcəzair soyqırımı kimi bir ləkə olan, Seneqal, Kamerun, Ruanda və Mərakeşdə qətliamların iştirakçısı olmuş Fransanın irqi ayrı-seçkilikdən danışmağa haqqı yoxdur:** ”Hesab edirik ki, milyon yarım insanın qətli ilə nəticələnən Əlcəzair soyqırımı barədə Azərbaycan parlamentində də dinləmələrin keçirilməsi məsələsinə baxmaq mümkündür. Xüsusi vurğulamaq istərdim ki, Senatın səs çoxluğu ilə qəbul etdiyi bu qətnaməyə səs verənlər nəticə etibarilə Fransanın Azərbaycan və Ermənistan arasında gedən danışıqlarda, Cənubi Qafqazdakı proseslərdə iştirakının əleyhinə səs verdilər”.

**Deputat Fəzail Ağamalı Azərbaycan parlamentində İran və Fransanın əleyhinə sənəd qəbul edilməsini təklif edib:** ”Təklif edirəm ki, sabah İran və Fransanın ölkəmizə qarşı düşmənçiliyini müzakirə edək və parlament səviyyəsində sənəd qəbul edək”.

**İsmayıl**




# Vaşinqton Pekinin ideallığını bölüşməyəcək

## ABŞ Çinə qarşı texnoloji sanksiyaları sərtləşdirir

**“Böyük iyirmilərin” İndoneziyadakı zirvə toplantısında ümumi müzakirələrlə yanaşı ikitərəfli görüşlər də keçirildi, fikir mübadilələri aparıldı. ABŞ Prezidenti Co Baydenlə Çin lideri Si Sinpin arasında da görüş oldu”.**

*Bu barədə ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, liderlər iki ölkə arasındakı gərginliyin azaldılması yollarını araşdırıblar:* ”İki ölkə arasında fikir ixtilafı yaradan mövzuların başında Tayvan ətrafındakı vəziyyət dayanır. Bu məsələdə hələ ki, irəliləyiş yoxdur. ABŞ Çinin texnoloji imkanlarını məhdudlaşdırmağa çalışarkən Pekin yeni qlobal strategiyasını elan edib: ”Bəşəriyyətin müsbət inkişafını təmin etmək məqsədilə ümumi texnoloji məkan formalaşdıracağıq”. Pekin bununla texnoloji sahədə sərt rəqabətin əleyhinə olduğunu nümayiş etdirib. Pekinin məntiqinə görə, texnoloji sahədə mübarizə aparılmamalı, nailiyyətlər bölüşülməlidir. Vaşinqton Pekinin ideallığını bölüşməyəcək. Çünki Vaşinqtonda düşünürlər ki, Rusiya və Çin müasir texnologiyalardan ordularını gücləndirmək və nüfuzlarını artırmaq məqsədilə istifadə edirlər. Belə olan halda ABŞ texnoloji kəşflərini Rusiya və Çinlə bölüşərmi? Rusiyanın özü də Pekinin təklifinə qoşulmaz. Çünki Rusiya da texnoloji kəşflərini Qərb ölkələri ilə bölüşmək istəmir”.

*Ekspertə görə, Pekinin mövqeyi belədir ki, internet əsrində dövlətlərin bir-birindən asılılıqlar artıb:* ”Pekin bəşəriyyətin texnologiyaların inkişafı üçün birgə məsuliyyət daşıdığı qənaətindədir. Pekinin səylərinə baxmayaraq, ABŞ Çinə qarşı məhz texnoloji sanksiyaları sərtləşdirir. Bunun iki səbəbi var. Birinci səbəbi odur ki, Pekin ABŞ-dan əldə etdiyi texnologiyaları ordusunun və hərbi sənayesinin modernləşdirilməsi üçün istifadə edir. Bu isə ABŞ-ın və onun Asiyadakı müttəfiqlərinin - Yaponiyanın, Hindistanın və Avstraliyanın maraqlarına ziddir. İkincisi, Çin xəfiyyələri illərdir ki, ABŞ-dan texnologiyaları oğurlayırlar.

Avropa İttifaqı da ABŞ-ın bu siyasəti ilə razıdır. ”Reuters” agentliyinin məlumatına görə, rəsmi Berlin Çinin Almaniyada çip istehsalının qarşısını almağı planlaşdırır. Məlumdur ki, Çin Almaniyada bir neçə texnoloji şirkətlərin səhmlərini almaq istəyir. Bu vəziyyət Çinə problemlər yaradır. Çində çip istehsalının həcmi azalır. Bunun də səbəbi Çinin yeni texnoloji nailiyyətlərdən istifadə edə bilməməsidir”.

**İsmayıl**



# “Azərbaycanla Pakistan birgə hərbi müəssisələr yarada bilər"

## Ramil Məmmədli: “Hərbi-texniki sahədə də əməkdaşlığımız davam etməlidir”

**“Azərbaycanla Pakistan arasında hərbi və hərbi-texniki əməkdaşlığın tarixi 1990-cı illərin əvvəllərinə dayanır”.**

*Bunu ”Şərq”ə hərbi ekspert Ramil Məmmədli deyib. Onun sözlərinə görə, Azərbaycan Pakistanla həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq üzrə hərbi sahədə əlaqələrini inkişaf etdirir.*

Qeyd edək ki, Azərbaycan Müdafiə sənayesi naziri Mədət Quliyev Pakistanın Müdafiə istehsalı üzrə federal naziri Məhəmməd İsrar Tarin ilə görüşüb. Hərbi-texniki əməkdaşlığın perspektivləri müzakirə olunub.

**Bu görüşü şərh edən ekspert qeyd edib ki, hazırkı məqamda ölkəmiz hərbi-texniki sahədə Pakistandan mənimsədiklərini həyata keçirə bilər:** ”Görüşdə M.Quliyevlə pakistanlı nazir arasında orada istehsal edilən və rəqəmsal, hərbi, nəzəri, elmi biliklərə əsaslanan optik cihazlar, həmçinin müasir texnologiyalar əsasında hazırlanan sistemlər, modernləşmə layihələrinə dair bir sıra məsələlər istiqamətində fikir mübadiləsi aparılıb. Birmənalı olaraq, demək mümkündür ki, Pakistanın müdafiə sənayesi sektoru son illərdə inkişaf etməkdə davam edir. ”IDEAS 2022” 11-ci Beynəlxalq Müdafiə Sərgisində Pakistan müdafiə sənayesi sektorunda təmsil olunan aviasiya şirkətləri iştirak edirlər”.

**R.Məmmədlinin qənaətincə, siyasi müstəvi ilə yanaşı, hərbi-texniki sahədə də əməkdaşlığımız davam etməlidir:** ”Pakistan məqsədəuyğun hesab etdiyi hərbi, elmi, nəzəri biliklərini Azərbaycana inteqrasiya etməlidir. Ölkəmizdə bu istiqamətlər üzrə Pakistan və Azərbaycan birgə müəssisələrinin yaradılması arzuolunandır. Nəticədə dövlətimizin müdafiə sənayesi sektoru inkişaf edə bilər”.

**Sücayət Mehti**

# Fransa ermənilərə bağlılığını bir daha sübut edir

## Qətnamə erməni lobbisinin təsiri nəticəsində gündəmə gəlib



**“15 noyabr 2022-ci il tarixində Fransa Senatında qəbul edilmiş ”Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi, 9 noyabr 2020-ci il tarixli atəşkəs razılaşmasına riayət etməsi tələbi və iki ölkə arasında dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş bütün təşəbbüslərin təşviq edilməsi” adlı qətnamə tamamilə həqiqətdən uzaqdır. Sözügedən sənəd yalan və iftira dolu müddəaları əks etdirir. Bu, açıq təxribat xarakteri daşımaqla Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinə xələl gətirilməsinə xidmət edir”.**

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Fransa Senatında Azərbaycan əleyhinə qəbul edilmiş qətnaməyə dair şərhində yer alıb.

Etirazda bildirilir ki, Senat tərəfindən qəbul edilən və hər hansı hüquqi qüvvəyə malik olmayan bu qətnamə, sülh prosesinə öz töhfəsini vermək niyyətini bəyan etmiş ölkə kimi Fransanın növbəti dəfə qərəzli və birtərəfli siyasi mövqeyini bariz şəkildə nümayiş etdirir: ”Ümumiyyətlə, qətnamədə qeyd edilən və reallıqlardan uzaq iddialar onun müəlliflərinin tarixi faktlardan və bölgədəki hazırkı vəziyyətdən xəbərsiz olmasını göstərir. Təəssüflə vurğulayırıq ki, Fransa parlamentinin yuxarı palatasının qətnaməsində növbəti dəfə Azərbaycanın ərazilərinin 30 ilə yaxın bir müddətdə Ermənistan tərəfindən işğalı, mülki əhaliyə qarşı törədilmiş qırğınlar, şəhər və kəndlərin talan edilməsi, yüzminlərlə məcburi köçkünün hüquqlarının qəddarcasına tapdanması, Ermənistanın Azərbaycanın tarixi torpaqlarında etnik təmizləmə siyasəti həyata keçirməsi, habelə 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın sülh quruculuğu, bərpa və yenidənqurma işləri ilə bağlı faktlar göz ardına alınır. Qətnamədə ”Dağlıq Qarabağ” adlandırılan qondarma qurumla bağlı cəfəng fikirlərlə əlaqədar senatorlara bir daha xatırladırıq ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisi olan Qarabağ bölgəsi Azərbaycanın ayrılmaz tərkib hissəsidir, bu bölgədə yaşayan erməni əsilli əhalinin hüquqları və təhlükəsizliyi Azərbaycanın daxili məsələsidir və bunlar Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq təmin ediləcək.

Senatın bu qətnaməsi Ermənistandakı revanşist qüvvələri həvəsləndirməklə, bölgədə sülh, sabitlik və tərəqqiyə xidmət etmir və qətnamənin adında qeyd olunduğu ”dayanıqlı sülhün təşviq edilməsindən” çox uzaqdır. Fransa Senatı tərəfindən qəbul edilmiş bu növbəti qətnaməni qətiyyətlə rədd edirik”.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən siyasi şərhçi Fuad Abbasov vurğulayıb ki, Azərbaycan XİN həm Fransa, həm də İran məsələsində çox gecikmiş bəyanatlar verib:** ”Biz görürük ki, Fransa Marseldə yaşayan ermənilərin könlünü almaq və onların səsindən istifadə etmək üçün Azərbaycana qarşı qərəzli mövqe ortaya qoyur. Əgər sözügedən ölkələrə vaxtında daha sərt notalar verilsəydi, vəziyyət bu yerə gəlib çıxmazdı.

Yəni Azərbaycan bunu son günə qədər gözləməyib, zamanında cavab versə idi, Fransanın da əlində əsas olardı kı, mənə neqativ rəylər gəlir və mən bunu edə bilməyəcəm. Rəsmi Paris isə bu qətnaməni vətəndaşlarının istəyi ilə qəbul etdiyini deyir. Amma bu səsvermə Fransadakı erməni lobbisinin təsiri nəticəsində gündəmə gəlib.

”Qanun layihəsinin qəbul edilməsi ilə Fransa ermənilərə bağlılığını bir daha sübut edir”.

**Nihat Müzəffər**

**Noyabrın 15-i saat 21:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**



# Ermənistan silahlandıqca sülhdən uzaqlaşır

## Vəziyyətə uyğun olaraq sülhə məcburetmə mexanizmi işə salına bilər

Bundan başqa, Azərbaycan Ordusunun Ağdam rayonu ərazisində yerləşən mövqeləri də noyabrın 16-sı saat 00:50-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən atəşə tutulub.



Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Ermənistanın son təxribatlarını ”Şərq”ə şərh edən ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib ki, ermənilərdən yaxşı nəsə gözləmək doğru deyil:** ”30 illik işğal tarixinə nəzər salsaq, onlardan çox şey gözlədik. Nəticədə, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə güc göstərərək Qarabağı işğaldan azad etdi. Ortada Ermənistan, Azərbaycan, Rusiya arasında imzalanan üçtərəfli, 10 Noyabr bəyanatı var. Müvafiq müddəaların bəziləri yerinə yetirilib. Lakin bəzi öhdəliklər hələ də sazişin üzərində qalıb. Hələ qanunsuz silahlılar çıxarılmayıb, sərhədlər də müəyyənləşdirilməyib”.

**Ş.Ramaldanovun qənaətincə, Azərbaycan tərəfi yürütdüyü müdrik siyasət nəticəsində erməniləri danışıqlarda diplomatiya dilinə sövq edə bilir:** ”Ermənistanda revanşist qüvvələr yetəri qədər güclüdür, bu ölkə heç vaxt müstəqil olmayıb. Paşinyan hökumətinin tutduğu mövqe hiyləgər və dəyişkəndir. Xarici havadarların təsiri altındadır. Sülh müqaviləsinin bağlanmaması ermənilər və onun havadarlarının məqsədidir. Onların marağı Azərbaycanla Ermənistanın müharibə şəraitində qalmasındadır. Hər zaman bu faktordan yararlanaraq Cənubi Qafqazda prosesləri alovlandırmaq istəyirlər.

Ermənistan havadarlarının köməyi ilə silahlanır. Nə qədər silahlansalar, məsələnin dinc yolla həll edilməsindən uzaqlaşacağıq. Ermənistan irimiqyaslı təxribatlara gedə bilmir. Çünki Azərbaycan ”Dəmir yumruğ”unu göstərir. Lakin kiçik təxribatlara əl atmaları istisna deyil. Atəşkəs mütəmadi pozulanda, praktiki addımlardan və qərarlardan söhbət gedə bilməz. Qarabağdakı Avropa nümayəndələri də qərəzli hesabatlar verəcək. Proseslər zəncirvari olduğuna görə, Zəngəzur dəhlizinin açılması ləngiyəcək”.

**Ş.Ramaldanov bildirib ki, Azərbaycan Ordusu yaranmış vəziyyətə uyğun qabaqlayıcı tədbirlər görür:** ”Ordumuz əməliyyat şəraitini daim nəzarətdə saxlayır. Sülhə məcburetmə mexanizmlərini işə salmaqla bağlı addımlar atıla bilər. Azərbaycanın hüquqi cəhətdən ixtiyarı var. Ermənistan tərəfi üçtərəfli sənədə qol çəkibsə, atəşkəsi qorumaqla bərabər digər öhdəliklərini yerinə yetirmək məcburiyyətindədir. Dövlət başçımız deyib: ”Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm”. Məqamı çatanda, ehtiyac yaranarsa, Ali Baş Komandan Orduya ”vur” əmri verəcək. Azərbaycan Silahlı Qüvvələri Müdafiə naziri Zakir Həsənovun tapşırıqlarını reallaşdırmaqla məşğuldur. Həm ”Dəmir yumruğ”u hazır vəziyyətdə saxlayırlar, həm də düşmən atəşkəsi pozduğu halda adekvat cavab verirlər”.

**Aygün Tahir**

# İran hesab verməlidir



## Güney Azərbaycanda yaşayan 10 milyonlarla soydaşımızın milli varlığı şübhə altına alınıb

**Parlamentin dünənki iclasında İranın Azərbaycan əleyhinə addımları, regional sabitliyə və qonşuluq münasibətlərinə zidd çağırışları da tənqid olunub. Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib ki, İran soydaşlarımızı assimilyasiyaya məruz qoyur, bu qəsd Ermənistana dəstəklə yekunlaşır. İran Vətən müharibəsi başa çatandan sonra Azərbaycanla sərhəddə 3 hərbi təlim keçirib.**

Sonuncu bunlardan ən böyüyü idi: "İran əsgərlərinin Araz çayını keçməsi, təlimlərdə daha çox hücum təyinatlı silahlardan istifadə edilməsi bu təlimlərin heç də İran rəsmilərinin açıqladığı kimi, sıradan təlim planına aid olmadığını göstərib: "Azərbaycan Prezidenti keçən ilin oktyabrında İranın keçirilmiş təlimlərinə öz ciddi mövqeyini ortaya qoymuşdu və 30 il niyə belə təlimlər keçirilmədiyini sorğulamışdı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəndən sonra İran bu sərhədlərdə təlimlər keçirməyə başlayıb. Halbuki, onun işğal dövründə öz sərhədlərini qorumağa ehtiyac var idi. İbrahim Rəisi niyə işğal dövründə bir dəfə də olsa, işğalın qəbul edilmədiyini bildirmədi? İranın qonşu dövlətin, həm də əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycan torpaqlarını işğalına etiraz etməməsinin səbəbi bəllidir. İran-Ermənistan dostluğu və qardaşlığı haqqında bəyanatlar verilməsi kimi məsələlər bizim diqqətimizdən qaçmır".

### "İran illərdir soydaşlarımıza dil üzərindən təzyiqlər edir"

Milli Məclisin deputatı Hikmət Babaoğlu qeyd edib ki, Tarixi Zəfərimizdən sonra yaşadığımız qürur dolu iki il bir daha göstərdi ki, biz necə böyük çətinliklərə, necə böyük güclərə qarşı savaşaraq möhtəşəm bir qələbə əldə etmişik: "Tarixi qələbə millətimizin qarşısında yeni üfüqlər açaraq yeni çağırışlar və vəzifələr müəyyənləşdirib. Bu milli vəzifələr və çağırışlar, Prezident İlham Əliyevin dediyi kimi, hər şeydən öncə Azərbaycanın hüdudlarından kənarda yaşayan on milyonlarla azərbaycanlının təhlükəsizliyi, hüquqları, identikliyinin təmin olunması ilə əlaqədardır. Qarşımızda duran vəzifələrin sosial-siyasi düsturu da elə bu fikirdə mövcuddur. Heç kəsə sirr deyil ki, bu gün İranda on milyonlarla azərbaycanlı yaşayır. 100 ildən çoxdur ki, onların ana dillərində təhsil almaq hüquqları da daxil olmaqla bütün hüquq və azadlıqları məhdudlaşdırılıb. 1979-cu ildən sonra isə İran rejimi soydaşlarımızın mədəni hüquqlarına da təcavüz edərək onların identikliyini milli dəyərlər üzərindən deyil, məzhəb dəyərləri üzərindən təyin etməyə çalışıb. Beləliklə, İranda yaşayan 10 milyonlarla soydaşımızın milli varlığı şübhə və təhdid altına alınıb. 1945-ci ildə xalqımızın Təbrizdə yaratdığı milli hökumət və onun elan etdiyi hüquq və azadlıqlar boğulub. Azərbaycanlılar təqiblərə, təhdidlərə, işgəncələrə məruz qalıblar. İran Konstitusiyasının 152-ci maddəsində deyilir ki, İranda rəsmi dil və xətt farscadır. Ancaq digər dillərdə də təhsil almaq qadağan edilmir. Əgər belədirsə, nəyə görə bu gün azərbaycanlılar öz ana dillərində təhsil ala bilmirlər? Əgər İran konstitusiyası bütün vətəndaşlara eyni şəkildə tətbiq edilirsə, nəyə görə İranda yaşayan bir ovuc erməniyə öz ana dilində təhsil almaq hüququ verilir, azərbaycanlılara gəldikdə isə bu konstitusion hüquq heçə sayılır? İran isə uzun illərdir soydaşlarımıza dil üzərindən təzyiq edərək onları milli və mədəni assimilyasiyaya məruz qoyur. Milli dildə danışa bilməmək milli və tarixi təfəkkürdən qopmaq deməkdir".

### "İran orada yaşayan soydaşlarımız və dindaşlarımıza hesab verməlidir"

*H.Babaoğluna görə, İran məhz soydaşlarımızın milli kimliyini əlindən almaq üçün bunları rəsmi dövlət siyasəti səviyyəsində qəsdən edir:* "Bu qəsdin davamı isə nəticə etibarilə Ermənistana hərbi-siyasi və iqtisadi dəstəklə yekunlaşır. Müsəlman mədəniyyətini dağıdan, islamı təhqir edən terrorçu Ermənistanla ittifaqa gətirib çıxarır. Bütün bunlara görə, İran orada yaşayan soydaşlarımız və dindaşlarımıza hesab verməlidir. İranın islamı təhqir edən Ermənistanla müttəfiq olması onunla birlikdə müqəddəs dinimizi təhqir etməsi deməkdir. Ona görə də İranda yaşayan milyonlarla soydaşımız öz dinlərinə sahib çıxa bilmək üçün hər şeydən öncə öz dillərinə sahib çıxmağı bacarmalıdırlar. Əks təqdirdə İran Ermənistanla dostluq edərək dinimizi təhqir etmiş olacaq. Bu gün hər bir azərbaycanlı bunların fərqində olmalı, hamılıqla dilimiz, mədəniyyətimiz, tariximiz, ortaq vətənimiz və milli identikliyimiz uğrunda mübarizəyə qoşulmalıdır".

### "İran "islam dövləti" adı altında islamı gözdən salır"

**Deputat Ceyhun Məmmədov da bu gün adını islam dövləti qoyan, ancaq bütün əməlləri islama zidd olan, hər zaman Azərbaycana qarşı xəyanətkar mövqe tutan İranın ölkəmizə qarşı təxribatlarının davam etdiyini söyləyib:** "İran bu gün islam dövləti adı altında islamı gözdən salır. Müxtəlif terror dəstələri yaradaraq müsəlman ölkələrində, o cümlədən, əhalisinin əksəriyyəti şiə məzhəbinə mənsub Azərbaycanda siyasi təşkilatlanma həyata keçirməyə, Azərbaycan dövlətinə qarşı xain dini-siyasi qruplaşmalar yaratmağa, sabitliyi pozmağa çalışır. Bu günə qədər Azərbaycanda ifşa olunmuş bəzi dini-ekstremist qrupların İranın xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirdikləri təkzibolunmaz faktlarla tam sübuta yetirilib. Bu gün bir çox müsəlman ölkələrində gedən müharibələrin arxasında İran rejimi durur".

### "Tehranın Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirakı heç kimə sirr deyil"

*C.Məmmədov qeyd edib ki, Azərbaycan torpaqlarının Ermənistanın işğalında olduğu 30 il ərzində bu ərazilərdə bütün infrastruktur, mədəniyyət, dini obyektlər, vətəndaşlara və dövlətə məxsus mülklər tamamilə dağıdılıb, təbii sərvətə böyük zərər vurulub:* "Tehranın 30 ilə yaxın bir müddətdə erməni işğalında olan Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirakı heç kimə sirr deyil. İşğalçı ölkə olan Ermənistan Qarabağda sökdüyü evləri tikinti materialları kimi İrana satırdı. Əgər İran müsəlman ölkəsidirsə, niyə 30 il müddətində Ermənistanın Qarabağ və Şərqi Zəngəzurda məscidlərimizi dağıtmasına, orada donuz və inək saxlamasına göz yumdu? İran həmişə müsəlman ölkəsi olan Azərbaycanla yox, Ermənistanla dostluq və qardaşlıq etdi, İrana səfər edən Ermənistanın azərbaycanlıların qanına əli batmış liderləri ilə bütün müsəlman dünyasının gözü qarşısında qucaqlaşıb öpüşməkdən belə çəkinmədi. Bütün bunlar onu deməyə əsas verir ki, İranın dinimizdən danışmağa mənəvi haqqı yoxdur!".

**İsmayıl**



# Polşaya raket zərbəsində müəmmalar var

## Elçin Xalidbəyli: "Raketlərin uçuş trayektoriyası da raketlərin Rusiyadan atıldığını təsdiqləməyə imkan vermir"

**"Polşaya raket zərbəsinin endirilməsi olduqca təhlükəli hadisədir. Çünki Polşa NATO ölkəsidir və raket zərbəsinin məhz Rusiya tərəfindən endirildiyi təsdiqlənərsə, bu, Ukrayna savaşının öz əhatə dairəsini genişləndirməsinə səbəb ola bilər".**

*Bu sözləri "Şərq"ə siyasi şərhçi Elçin Xalidbəyli deyib. O bildirib ki, NATO nizamnaməsinin beşinci maddəsinə görə, bu hərbi-siyasi alyans öz üzvlərini xarici müdaxilədən müdafiə etmək öhdəliyinə malikdir: "Belə anlaşılır ki, Ukrayna savaşının öz əhatə dairəsini genişləndirərək dünya müharibəsinə çevrilməsində birbaşa maraqlı olan qüvvələr mövcuddur.*

Həm ABŞ, həm də digər NATO ölkələrindən verilən ilkin reaksiyalarda hərbi-siyasi alyansın öz ərazilərini qorumağa hazır olduğu birmənalı şəkildə vurğulanır.

Amma Şimali Atlantika Alyansının hərbi əməliyyatlara başlamasından öncə Polşaya raket zərbəsini məhz Rusiyanın endirdiyi inkaredilməz faktlarla sübut olunmalıdır. Həmçinin Kreml Polşa istiqamətində raket atmadığını, baş verən hadisənin Rusiyaya qarşı təxribat olduğunu bəyan edib.

Digər tərəfdən, ABŞ Prezidenti Co Bayden də raketin Rusiya ərazisindən atıldığına ciddi şübhələrin olduğunu bildirib. Eyni zamanda daha iki önəmli məqam da aydınlaşmağa başlayıb.

İlkin araşdırmalar nəticəsində məlum olub ki, Polşa ərazisinə düşən raketlərin heç birisi Rusiya istehsalı deyil. Bundan başqa, raketlərin uçuş trayektoriyası da raketlərin Rusiyadan atıldığını təsdiqləməyə imkan vermir. Ona görə də ehtimal edilir ki, Polşa ərazisinə düşən raketlər Ukrayna ordusunun Rusiyanın raket zərbələrinin qarşısını almaq üçün istifadə olunub və səhvən qonşu ölkəyə doğru istiqamətlənib. Yəni hələlik məlumatlar ziddiyyətlidir. Ciddi araşdırmalara ehtiyac var".

**E.Xalidbəyli bildirib ki, hər hansı səhv və ya qərəzli yanaşma bütün dünya üçün böyük fəlakətə çevrilə bilər:** "Böyük ehtimalla Ukrayna savaşının qlobal müharibəyə çevrilməsində maraqlı olan beynəlxalq güclər bu hadisədən öz məqsədləri üçün istifadə etməyə çalışacaqlar. Ancaq buna qətiyyən imkan verməmək olmaz.

Bütün dünyanın gələcək taleyi kimlərinsə maraqlarına qurban verilə bilməz. Yəqin ki, ən yaxın günlərdə sözügedən önəmli və təhlükəli hərbi insidentin başvermə şəraiti tam dəqiqliyi ilə aydınlaşacaq.

Müasir texnologiyaların hökmranlıq etdiyi indiki dövrdə bu, o qədər də çətin deyil. Hər halda Kremlin günahkar olduğu təsdiqlənərsə, hadisə NATO-nun Rusiyaya qarşı hərbi əməliyyatlara başlamasına səbəb ola bilər".

*Qeyd edək ki, Polşa Xarici İşlər Nazirliyi çərşənbə axşamı ölkənin şərqindəki Pşevoduv kəndi ərazisinə Rusiya istehsalı olan raketlərin düşməsi nəticəsində iki nəfərin həlak olması ilə bağlı məlumat yayıb. NATO təyyarəsi Polşa ərazisinə düşən raketin trayektoriyasını izləyib. Kəşfiyyat məlumatları NATO və Polşaya təqdim edilib. Lakin raketlərin buraxılış yeri barədə məlumat verməyib.*

**Sücayət Mehti**



# İran Azərbaycanın daxili işlərinə qarışa bilməz

## Kommunist partiyasının sədri deyib ki, əleyhimizə qarşı atılan istənilən addıma cavab verməyə gücümüz çatır

**"İranın ölkəmizə qarşı hərəkətlərindən ciddi narahatıq. Hesab edirik ki, İran layiqli cavabını almalıdır. İranın əleyhimizə atdığı istənilən addımına, yanlış hərəkətinə cavab verməyə Azərbaycanın gücü, qüdrəti çatır". Bu sözləri "Şərq"ə açıqlamasında Azərbaycan Kommunist Partiyasının (AKP) sədri Rauf Qurbanov deyib.**

Partiya rəhbəri deyib ki, o, Azərbaycan və İran arasındakı münasibətlərin hər zaman ikitərəfli, qarşılıqlı əməkdaşlığa söykənməsinin, mehriban qonşuluq əlaqələrinin tərəfdarı olub. Nəzərə alıb ki, orada bizim 40 milyonluq soydaşımız yaşayır: "Daim ifadə etmişəm ki, bu iki dövlət və xalq arasında qızışdırıcı mövqedən çıxış edənlər düşmənin dəyirmanına su tökmüş sayılırlar. Lakin əfsuslar olsun ki, İran hökuməti tərəfindən müstəqil Azərbaycanın daxili işlərinə qarışmaq faktları ilə rastlaşırıq. Bundan çox təəssüflənirəm və belə halları pisləyirəm. Azərbaycan dövləti və prezident dəfələrlə bəyan edib ki, bizim heç bir ölkənin daxili işinə qarışmaq fikrimiz yoxdur. Məqsədimiz dinc quruculuqla iqtisadiyyatımızı genişləndirmək, əhalinin sosial rifah halını yaxşılaşdırmaq olub. Qonşularımızla da xoş və qarşılıqlı münasibət qurmaq, dostluq əlaqələrini formalaşdırmaq niyyətində olmuşuq və bu yöndə addımlar atmışıq. Amma İran hökumətindən bu münasibətin tamamilə əksini müşahidə edirik. Müxalifətdə olan siyasi partiyanın rəhbəri olsam da, milli maraqlar ətrafında daim həmrəylik nümayiş etdirmişik. Bu, ən vacib şərtlərdən biridir. İranın ölkəmizin daxili işlərinə kobud formada müdaxilə cəhdləri, Azərbaycanı təhdid etməsi, əzələ nümayiş etdirməsi sadə bir vətəndaş kimi məni narahat edir. İran hökuməti Azərbaycana qarşı çox yanlış siyasət həyata keçirməkdədir. Tehran hökuməti cəmiyyətin hakim dairələrinə mənfi münasibətini nəzərə almalıdır. Yaxşı olar ki, İran öz daxilindəki problemlərlə məşğul olsun".

*R.Qurbanov vurğulayıb ki, adətən, ölkələri mənsub olduqları dinə görə təsnifləndirməkdən uzaq olub:* "Hansı dinə qulluq etməsindən asılı olmayaraq, hər dövlətin öz siyasi maraqları var. Ancaq hər şeydən əvvəl İranın, şiə-müsəlman dövlətin Azərbaycana qarşı bu qədər soyuq və yad münasibət sərgiləməsi qəbuledilməzdir və hər birimizdə dərin təəssüf hissi doğurur. Azərbaycan dövləti və ictimaiyyəti İranın yanlış mövqeyinə və davranışına layiqli cavab verməlidir. Müvafiq orqanlarımız Tehrana ciddi xəbərdarlıq etməlidir. Heç bir vəchlə İranın bizim daxili işlərimizə qarışmasına yol verilməməlidir. Əminəm ki, ictimaiyyətimizin birliyi və həmrəyliyi sayəsində İranın ölkəmizə qarşı xoşagəlməz addımlarının heç bir təsiri olmayacaq". Məlumat üçün bildirək ki, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi İranla bağlı bəyanat da yayımlayıb. Bəyanatda Tehranın son günlər atdığı addımları, ölkə daxilində baş verən zorakılıq olayları, etirazçılara qarşı törədilən vəhşiliklər pislənilib. Qeyd olunub ki, İrandakı etirazlar ümumxalq hərəkatıdır və etirazların əsas səbəbi xalqın iradəsinə zidd olan, ölkədəki ictimai-siyasi dəyişikliklərə istiqamətlənmiş cəhddir".

**İsmayıl Qocayev**

# Makron riyakardır...

## Senatın qəbul etdiyi qətnamənin heç bir hüquqi əsası yoxdur

**Fransa Senatı "Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi" ilə bağlı qətnaməni yekdilliklə qəbul edib. "Qanun" layihəsinin lehinə 295, əleyhinə 1 səs verilib. Senatın qətnaməsi yalnız "tövsiyə" xarakterlidir və heç bir praktik əhəmiyyəti yoxdur. Məsələ ondadır ki, Fransa hökumətinin bu "tövsiyəyə" əməl etməsi də inandırıcı deyil.**



**Azərbaycan bundan sonra Fransa ilə bağlı siyasətinə korrektələr edəcək**

Fransa Avropa İttifaqının üzvüdür və istədiyi qərarı təkbaşına verə bilməz. Rusiyanın enerji daşıyıcılarından azad olmaq istəyən Avropa İttifaqının siyasi mərkəzi Azərbaycandan neft və qaz alışında maraqlıdır. Digər yandan qətnamədə qeyd edilən bir çox iddialar müəlliflərin tarixi faktlardan və bölgədəki hazırkı vəziyyətdən xəbərsiz olmasını göstərir. Misal üçün, qətnamədə "Dağlıq Qarabağ" adı keçir və qondarma quruma "müstəqilliyin" verilməsi kimi iddialar yer alır. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisi hər kəsə bəllidir və rəsmi Paris də bunu belə qəbul edib. Qətnamənin mahiyyəti siyasidir. Senatın qəbul etdiyi qətnamədə "dayanıqlı sülhün təşviq edilməsindən" bəhs edilsə də, əslində niyyət başqadır. Qətnamə praktik olaraq əhəmiyyətsiz olsa da, söhbət rəsmi Parisin Bakının daxili işlərinə kobud şəkildə qarışmasından gedir. Əgər Fransa tərəfi bu hüququ özündə görürsə, Azərbaycan da Fransanın Avropa xaricindəki torpaqlarında gedən müstəqillik hərəkatları və Korsika adasındakı iğtişaşları dəstəkləyən qətnamələr qəbul edə bilər.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə deyib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra uzun illər ərzində Fransa ilə səmimi dost və müttəfiqlik siyasəti yürütməyə çalışıb.** Lakin rəsmi Bakının bütün cəhdlərinə və xoş məramına baxmayaraq ötən illər ərzində Fransa dövlətini və xüsusən də onun parlament qanadını haqq yoluna gətirmək mümkün olmayıb. Partiya sədrinin sözlərinə görə, Fransa ermənipərəstlik mərəzindən, xristian təəssübkeşliyindən, türkofobiya mövqeyindən heç cürə əl çəkə bilmir: "Fransa dövləti hazırkı kursundan əl çəkməyəcək. Biz bu acı həqiqətlə barışmalıyıq. Fransa Senatında Azərbaycana qarşı qəbul olunan qətnamə də bunun tərkib hissəsidir. Hərçənd, sözügedən qətnamənin heç bir hüquqi qüvvəsi yoxdur və bu sənədin müddəaları Azərbaycan üçün məcburi xarakter daşımır. Ancaq bütün hallarda Fransa senatorlarının məlum sənədə yekdilliklə səs verməsi Fransa-Azərbaycan münasibətlərini zədələmək, korlamaq üçün yetərlidir. Bu baxımdan, kimlərsə deyirsə ki, məlum qətnamənin qəbul edilməsi Fransa-Azərbaycan münasibətlərinə xələl gətirməyəcək, heç bir mənfi təsir göstərməyəcək, onlar ciddi şəkildə yanılırlar. Azərbaycanın Fransa senatorlarının bu cür rüsvayçı davranışına göz yummaq fikri yoxdur. Makron hökuməti öz ənənəsinə uyğun olaraq həmişəki kimi yenə də riyakarlıq edib senatorların bu cür təxribatçı addımına səssiz qala bilər, ancaq rəsmi Bakının səbr limiti isə heç də hüdudsuz deyil. Azərbaycan bu qətnamənin qəbul edilməsindən özü üçün ciddi nəticələr çıxaracaq və Fransa ilə bağlı siyasətinə əsaslı korrektələr edəcək. Fransa dövlətinin siyasətini fransız xalqının seçdiyi prezident və parlamentarilər yox, Fransadakı güclü erməni lobbisi və diasporu müəyyən edirsə, bizə belə bir dövlətin vasitəçiliyi əsla lazım deyil. Bundan sonra Fransaya qarşı adekvat siyasət yürüdəcəyik. Fransa özünü ikinci erməni dövləti kimi aparırsa, biz də bu ölkə ilə gərəkən şəkildə davranacağıq. Fransanın Azərbaycandakı siyasi, iqtisadi, mədəni maraqları ciddi şəkildə sarsılacaq".

**"Sağlam İnkişaf və Maarifləndirmə" İctimai Birliyinin sədri Anar Xəlilov da bildirib ki, Fransanın aşağı palatasının Azərbaycanla bağlı qəbul etdiyi qətnaməsi faşizmin müdafiəsi kimi dəyərləndirilməlidir:** "Erməni faşizminin 30 il ərzində Azərbaycana qarşı apardığı faşist siyasətini müdafiə edən rəzil bir qətnamə qəbul edən fransız parlamenti Hitlerin Parisi zəbtini unutmamalıdırlar. Biabırçı surətdə faşizmə təslim olmalarını xatırlayıb bilməlidirlər ki, onları faşizmdən qurtaran oğullar arasında azərbaycanlılar çox olub. Əhmədiyyə cəbrayılovlar onları faşizmdən qurtarıb. Fransa kimi dərin dövlətçilik tarixi olan bir ölkə dərk etməlidir ki, faşizmə dəstək yenidən Parisdə hitlerlərin şəkil çəkdirməsinə səbəb ola bilər".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi



# İndi ən həssas dönəmdir

## “İctimaiyyət dövlətə yardım etməli, məsuliyyəti bölüşməli, ayıq-sayıq olmalıdır”

**Terror dövlətlərə qarşı gizli mübarizə üsullarından biridir. Terroru siyasi mübarizə üsulu hesab edənlər bundan ölkə daxilində sabitliyi, asayişi pozmaq üçün istifadə edir. Türkiyədə baş verən terror hadisəsi təkcə Türkiyəyə qarşı deyil, bizə qarşı da yönəlib. İstanbulda törədilmiş terror hadisəsi də bu səpkilidir. Azərbaycan təhlükəsizlik orqanlarının və Birinci Qarabağ müharibəsinin veteranı, DTX-nin fəxri əməkdaşı, istefada olan polkovnik Azər Qarayev hesab edir ki, bu cür terror hadisəsi törətməklə hansısa qüvvələr türk dövlətlərinin birliyinin qarşısını almağa çalışır.**

”Bildiyiniz kimi, noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirildi və bəyanat qəbul edildi. Bu terror hadisəsinin də onunla bağlı olma ehtimalı var, Türk dövlətlərinin birləşməsinə imkan vermək istəmirlər. Əlbəttə, bizi istəməyən dövlətlər az deyil. Bu, planlaşdırılmış bir terror hadisəsi idi. Bu terror hadisəsi təkcə türkiyəli vətəndaşlara qarşı yönəlməyib, həm də Türkiyə dövlətinə qarşı yönəlib. Terror hər zaman qeyri-qanuni qüvvələrin dövlətlərə təzyiq vasitəsi olub. Bununla da həmin dövlətləri öz siyasətlərindən yayındırmağa, onlara təsir etməyə çalışıblar”, - deyə A.Qarayev vurğulayıb. A.Qarayev xarici ölkələrdə olan səfirliklərimizin də təhlükəsizliyi məsələsinə toxunub. Polkovnik qeyd edib ki, yaxın zamanlarda Azərbaycanın səfirliklərinə qarşı hücumların şahidi olduq: ”Səfirliklərimizin təhlükəsizliyinin təmin olunmasında həmin ölkələrin birbaşa məsuliyyəti var. Beynəlxalq konvensiyalara əsasən, hər bir ölkə öz ərazisində yerləşən səfirliklərin təhlükəsizliyi üçün məsuliyyət daşıyır. Son zamanlar Azərbaycan səfirliklərinə edilən hücumlar isə onu göstərdi ki, bəzi dövlətlər bu tələblərə tam əməl etmirlər. İlk növbədə, xarici ölkələrdə olan səfirliklərimiz də bu məsələyə xüsusi diqqətlə yanaşmalı və təhlükəsizlik tədbirlərinin artırılması üçün lazımi müraciətlər etməlidir”.

Azərbaycan təhlükəsizlik orqanının sabiq əməkdaşı İlham İsmayıl da Türkiyədə baş verən terror hadisəsini dövlətçiliyə qarşı hücum kimi qiymətləndirib. Azərbaycanda İranın casus şəbəkəsinin ifşa olunmasından söz açan ekspert bəzilərinin hələ də həbs edilmədiyini söyləyib: ”İranın dəstəklədiyi dini radikal qruplaşmalar Azərbaycana təsir etmək üçün müəyyən terror hadisələrini törətməyə cəhd göstərə bilər. Bundan öncə İran casus şəbəkəsinin Azərbaycan vətəndaşlarından ibarət silahlı dəstəsi saxlanılmışdı. Bu insanlar Suriyada xüsusi hazırlıq keçiblər. Onlardan bir neçəsi saxlanılıb. Müəyyən bir qrup isə hələ də həbs olunmayıb. Həbs olunmayan şəxslərin terror hadisəsi törətməsi mümkündür. Bu, xüsusilə, nəzərə alınmalıdır”. İlham İsmayılın sözlərinə görə, vəziyyətin gərginləşdiyi dönəmdə terrora hazırlaşan tərəflər adətən gözləmə mövqeyi tuturlar. Onlar terror aktını həyata keçirmək üçün aranın sakitləşməsini, şübhəli məqamların aradan qalxmasını gözləyirlər. Bu müddət ərzində xüsusi xidmət orqanları birgə fəaliyyətlərini daha da gücləndirməlidir. İndiki məqamda maarifləndirmə işlərinin aparılması da xüsusi əhəmiyyət daşıyır.

***"Əgər bu gün metroda əl çantalarının, daşınan yüklərin yoxlanması tələbi qoyulubsa, hamı buna əməl etməlidir. Hətta kimsə hansısa sərnişinin əl çantasını yoxlama cihazından keçirmədən eskalatora mindiyini görürsə, dərhal bu barədə polis əməkdaşlarına xəbər verməlidir"***

**Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, hazırda hər birimizin üzərinə böyük məsuliyyət düşür:**

- Fikir vermisinizsə, ictimai nəqliyyatda vətəndaşlara xəbərdarlıq elanları hələ də qalır. Bu xəbərdarlıqlar pandemiyanın ilk dövrlərində ictimai nəqliyyatda göründü və bu, vacib idi. Çünki pandemiyadan irəli gələn karantin rejimi mühüm əhəmiyyət kəsb edirdi. Qeyri-adi şəraitlərdə terror təhlükəsinin artma ehtimalı yüksəlir. Cəmiyyət həssas olduğu üçün, dövlətin resursları konkret problemin həllinə səfərbər olduğu üçün, müəyyən boşluqlar yarana bilir. Belə vəziyyətlərdə vətəndaşların, ictimaiyyətin dövlətə yardım etməsi, məsuliyyəti bölüşməsi, ayıq-sayıq olması lazımdır. İctimaiyyət səylərini birləşdirib çətin, mürəkkəb mərhələdə dövlət orqanlarına dəstək olmalıdır. Bu xəbərdarlıqlar da həmin məqsədə xidmət edirdi. Elanlarda vətəndaşlara müraciətlə qeyd edilir ki, hər hansı şübhəli şəxs və ya əşya gördükdə dərhal ”qaynar xətt”ə zəng etsinlər, polisə müraciət etsinlər. Diqqət etmisinizsə, metroda da eyni məzmunlu xəbərdarlıq səsləndirilir. Bütün bunlar vətəndaşların ayıq-sayıqlığını artırmaq üçündür. Hazırda ölkəmiz həssas dönəmdədir. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə regionda ictimai-siyasi ab-havanı Azərbaycanın xeyrinə dəyişdi. Əlbəttə ki, belə bir üstünlük əldə etməyimiz bəzi bədxahlarımızı narahat edir. Həmin güclər müxtəlif üsullarla Azərbaycanın dünya birliyindəki gücünü, möhkəmlənmiş mövqeyini sarsıtmağa cəhd göstərmək istəyirlər. Belə vəziyyətlərdə terrora əl atmaq bəd niyyətli dövlətlərin və siyasi güclərin silahına çevrilir. Ona görə də hər birimiz bu həqiqəti anlayaraq təhlükəsizlik məsələlərində dövlətimizə dəstək verməliyik. Əgər bu gün metroda əl çantalarının, daşınan yüklərin yoxlanması tələbi qoyulubsa, hamı buna əməl etməlidir. Hətta kimsə hansısa sərnişinin əl çantasını yoxlama cihazından keçirmədən eskalatora mindiyini görürsə, dərhal bu barədə polis əməkdaşlarına xəbər verməlidir. Təhlükəsizlik hazırda ən ciddi riayət edilməli məsələdir. Bunu bizdən dövlətimizin və ictimaiyyətin maraqları tələb edir. Aidiyyətli orqanlar da təhlükəsizliklə bağlı tədbirləri ikiqat gücləndirməlidir. Metro, avtobus, universitet kimi insanların kütləvi toplaşdığı yerlərdə mövcud təhlükəsizlik işlərinə əlavələr edilməlidir. Eyni zamanda, əhali arasında maarifləndirmə işi aparılmalıdır. Maarifləndirməyə də ciddi önəm verilməlidir. Televiziyalarda sosial çarxlar nümayiş etdirilməli, küçələrə, parklara xəbərdarlıq elanları vurulmalıdır. Bunlar əhəmiyyətsiz deyil. Yaddaş üçün, xatırlatma üçün çox vacib elementlərdir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Cənub qonşumuza zor gücü ilə danışmaq sərf etməyəcək"

## Xəqani Səfəroğlu: ”İranı sanksiyalardan qurtaran yollar Azərbaycandan keçir”

**İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahian azərbaycanlı həmkarı Ceyhun Bayramovu regional məsələlərin diplomatiya strategiyası ilə həlli çərçivəsində Tehranda keçiriləcək ”3+3” görüşündə iştiraka dəvət edib. İranlı nazir bu barədə noyabrın 15-də axşam saatlarında Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığı zamanı bildirib.**

O deyib ki, ölkələrin suverenliyinə hörmət edilməsi vacib və əsas prinsip kimi nəzərə alınmalıdır.

İranın baş diplomatı rəsmi və diplomatik kanalları anlaşılmazlıqları və fikir ayrılıqlarını həll etmək üçün ən yaxşı yol hesab edib və vurğulayıb ki, mediada bu cür məsələlərin gündəmə gətirilməsi nəinki problemin həllinə kömək edir, həm də düşmənlərin məsələdən sui-istifadə etməsinə yol açır.

Hüseyn Əmir Abdullahian qonşuları ilə, o cümlədən Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinin İran xarici siyasətinin prioriteti hesab edib və iki ölkə arasında hərtərəfli əlaqələrin gücləndirilməsinin vacibliyindən söz açıb. Azərbaycanın xarici işlər naziri də öz növbəsində İran və Azərbaycan prezidentlərinin Qazaxıstanın Astana şəhərinə son səfərinə diqqət çəkib və iki ölkənin yüksək səviyyəli rəsmiləri arasında aparılan danışıqları ”müsbət və konstruktiv” qiymətləndirib.

C.Bayramov da öz növbəsində ikitərəfli münasibətlərin gücləndirilməsinin və anlaşılmazlıqların aradan qaldırılmasının vacibliyini qeyd edib.

Söhbət zamanı iki ölkə arasında münasibətlərinin gücləndirilməsi və yarana biləcək anlaşılmazlığın aradan qaldırılması istiqamətində bütün sahələrdə əlaqələrin davam etdirilməsi və gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

**Məsələni ”Şərq”ə dəyərləndirən tanınmış jurnalist Xəqani Səfəroğlu qeyd edib ki, İranın xarici işlər nazirinin Ceyhun Bayramovu Tehrana dəvət etməsi də soyuqluğu aradan qaldırmağa cəhddir:** ”3+3 formatı bölgənin problemlərinin həlli məqsədiylə yaradılıb. Bu qrupa region ölkələri olan Türkiyə, Rusiya, Gürcustan, İran, Ermənistan və Azərbaycan daxildir. Son zamanlar İranla Azərbaycan arasındakı gərginlik isə yeni baxış tələb edir.

Yəni İranla son qalmaqallar, bütün sahələr üzrə əməkdaşlıq imkanlarını məhdudlaşdırıb. Bu baxımdan da məsələnin həll edilməsi üçün İran tərəfindən diplomatik cəhdlər artıb.

Ümumiyyətlə, iki ölkə arasındakı gərginlik artıq cənub qonşumuzu ciddi şəkildə narahat edir. Çünki onlar bir sıra iqtisadi layihələrdə bizdən asılıdır.

Burada xüsusən Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı məsələ var ki, İran neçə ildir bu dəhlizin işə düşməsinə cəhd edir. Burada da Astara və Rəşt-Qəzvin dəmir yolunun tikintisi mühümdür”.

**Ekspertin sözlərinə görə, İran daxilindəki siyasi elitada Azərbaycana qarşı olan mövqe birmənalı qarşılanmır:** ”Ortada daha çox münasibətləri normallaşdırmaq cəhdi görünür. İran XİN-in telefon danışığında olan, mətnində də hiss olunur ki, onlar münasibətlərin əvvəlki qaydada olmasını arzulayırlar. Yəni bütün məsələləri dinləməyə hazır olduqları barəsində mesaj verirlər.

Rəsmi Bakı isə özü üçün vacib bildiyi məsələləri Tehrana çatdırır və bununla razılaşma mövqeyində qaldığını ifadə edir. Azərbaycanın tələbləri isə regional təhlükəsizliklə bağlıdır.

Yəni biz İrandan ərazi bütövlüyümüzü və 44 günlük müharibədən sonra regionda yaratdığımız geopolitik reallığı tanımasını tələb edirik. O cümlədən Zəngəzur dəhlizi ilə bağlı Tehranın birmənalı mövqe ortaya qoymamasını istəyirik.

Çünki onlar bu dəhlizin əleyhinədir və fikirləşirlər ki, Zəngəzur dəhlizi onların Avropaya çıxan logistik habına zərbə vuracaq. Bu isə heç də belə deyil. Əgər İran həqiqətən qazanclı çıxmaq istəyirsə, Azərbaycanı dinləməli və məsələləri müzakirələr masasında həll etməyə çalışmalıdır. 30 ildir sanksiyalar altında əzilən cənub qonşumuza, zor gücü ilə danışmaq sərf etməyəcək.

Ona görə ki, onları sanksiyalardan qurtaran əsas yollar Azərbaycandan keçir”.

**Nihat Müzəffər**

# Qatil dövlət...

## Ermənistan azyaşlı uşaqları müharibəyə sürükləyir

**Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları BMT Baş katibinin Uşaqlar və Silahlı Münaqişələr üzrə Xüsusi Nümayəndəsi xanım Vircinia Qambaya Ermənistan tərəfindən 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlarda istifadə edilməsi, Azərbaycanafobiya ruhunda tərbiyə olunması ilə bağlı bəyanat ünvanlayıblar.**

Bəyanatda İkinci Qarabağ müharibəsi zamanı uşaqların Ermənistan tərəfindən birbaşa hərbi əməliyyatlara, həmçinin ”VOMA”, ”POGA” və ”Mets Tiqran” kimi hərbi təşkilatlar tərəfindən hərbi təlimlərə cəlb edilməsinə etiraz ifadə edilib.

Müraciətdə qeyd olunub ki, Ermənistan yetkinlik yaşına çatmayan şəxsləri məcburi şəkildə hərbi münaqişəyə cəlb edərək nəinki uşaqların təhsil, inkişaf və digər hüquqlarını pozur, ümumiyyətlə, onları ölümə göndərir: ”Döyüş meydanında heç bir qanun tanımayan Ermənistan dövləti çoxsaylı beynəlxalq qanunları, o cümlədən BMT-nin, UNİCEF-in Paris konvensiyasının uşaq hüquqları ilə bağlı konvensiya və normalarını heçə sayır.

Ermənistanın uşaqları hərbi təlimlərə açıq şəkildə cəlb etməsi bir daha onu göstərir ki, işğalçı dövlət regionda etimad quruculuğuna ehtiyac olan dövrdə azərbaycanlılara nifrət aşılamaqla davamlı sülhün bərqərar olmasına maneçilik törədir, beynəlxalq hüququn prinsiplərinə hörmət etmir və özünün beynəlxalq öhdəliklərinə etinasız yanaşır. Ermənistan hökumətinin rəhbəri və üzvləri tərəfindən insanlığa zidd olan müharibə cinayətlərini özündə əks etdirən qərarlara konvension normalara uyğun olaraq hüquqi qiymət verilməli və məsuliyyət müəyyənləşdirilməlidir”. Müraciət 48 QHT tərəfindən imzalanıb.




### Bununla İrəvan beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozur

**Millət vəkili Könül Nurullayeva beynəlxalq konvensiyalara görə, müharibədə azyaşlıların və qadınların əməyindən istifadənin qadağan olduğunu, bunun birbaşa müharibə cinayəti hesab edildiyini deyib.**

Onun sözlərinə görə, Ermənistanın hərbi əməliyyatlarda azyaşlılardan istifadə etməsi bu ölkənin beynəlxalq hüququnun prinsiplərini və ən əsası özünün beynəlxalq öhdəliklərini kobud şəkildə pozduğunu göstərir: ”Nəzərə almaq lazımdır ki, ümumiyyətlə, 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlara cəlb olunması ilk növbədə Cenevrə konvensiyasının müvafiq bəndlərinin, eyni zamanda, BMT-nin 20 noyabr 1989-cu il Baş Məclisinin 44-cü sessiyasında qəbul edilən ”Uşaq hüquqları haqqında” Konvensiyanın 38-ci maddəsinin kobud şəkildə pozulması deməkdir. Adıçəkilən Konvensiyada iştirakçı dövlətlər silahlı münaqişələr zamanı uşaqlara aidiyyəti olan beynəlxalq humanitar hüquq normalarına ciddi riayət etməyə çağırılır, eyni zamanda, 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlarda birbaşa iştirak etməsi qadağan edilir”.

*Millət vəkili deyib ki, Ermənistan istər hərbi əməliyyatlarda, istərsə də atəşkəs dövründə uşaqların qatili rolunda çıxış edir:* ”Təsadüfi deyil ki, atəşkəs dövründə 40-dan çox azərbaycanlı uşaq məhz erməni snayperi ilə öldürülüb. Eyni zamanda, Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkünün 300 mindən çoxunu uşaqlar təşkil edir. Sentyabrın 27-dən başlayan hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə bölgəsindən kilometrlərlə uzaqda yerləşən şəhər və rayonlarına etdiyi artilleriya və raket hücumları nəticəsində öldürülən 65 mülki şəxsdən 10-u azyaşlı uşaqdır. 300 nəfər yaralı arasında uşaqlar da var. Təəssüflər olsun ki, Ermənistan bu gün də müharibə cinayətlərini davam etdirir və yenə də hədəfdə azyaşlı uşaqlar da daxil olmaqla mülki insanlardır. Baş verənlər beynəlxalq ictimaiyyəti ciddi narahat etməli və Ermənistan beynəlxalq hüququ pozduğu üçün məsuliyyətə cəlb olunmalıdır”.

**Şəymən Bayramova**

# Əhali reallığı dərk etməyə başlayıb

## Artıq vətəndaşlar metroya və ictimai nəqliyyata üstünlük verir





**Bu ilin yanvar-oktyabr aylarında "Bakı Metropoliteni" 167 358,8 min sərnişin daşıyıb ki, bu da illik müqayisədə 3 dəfə çoxdur. Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, 2021-ci ilin yanvar-oktyabr ayları ərzində metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 55 625,1 min nəfər olub.**

Bakıda metropolitenində xətlərin uzunluğu 36,6 kilometrə, sayı 3-ə, stansiyalarının sayı isə 25-ə bərabərdir. Hazırda Bakı metropolitenində konseptual inkişaf proqramına uyğun olaraq, tikinti işləri davam etdirilir. Dövlət Proqramına əsasən, 2030-cu ildə paytaxtın yeraltı yollarının ümumi uzunluğu 119,1 km, stansiyalarının sayı isə 76-ya çatdırılması planlaşdırılır. 2022-ci ilin yanvar-oktyabr aylarında sərnişin xidmətində də artım olub. Nəqliyyatçılar 1318,2 mln. sərnişinə xidmət göstəriblər. Sərnişinlərin 86,9 faizi avtomobil nəqliyyatı, 12,7 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb. Bu göstəricilər ictimai nəqliyyatdan istifadənin artdığını da təsdiqləyir. Əhalinin ictimai nəqliyyata üstünlük verməsi təqdirolunası haldır. İllərdir, mütəxəssislər paytaxt əhalisinə ictimai nəqliyyatdan daha çox istifadə etməyi məsləhət görür, müvafiq orqanlar xüsusilə beynəlxalq tədbirlər, yarışların keçirildiyi günlərdə, həftə sonları, "pik saatlar"da ictimai nəqliyyata üstünlük verilməsini tövsiyə edirlər. Görünür, əhali reallığı daha çox dərk etməyə başlayır və şəxsi avtomobillə, eləcə də nisbətən baha qiymətə taksi xidmətindən istifadə edib, istənilən halda tıxacda qalmaqdansa, ictimai nəqliyyatdan istifadəyə üstünlük verir. Bu anlayışla ki, tıxac onsuz da var, fərq etmir, şəxsi avtomobillə, ya taksi ilə. Ondansa, daha az xərclə avtobus və metrodan istifadə sərfəlidir.

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında sərnşindaşımada həm metropoliten, həm də avtomobil nəqliyyatının çəkisinin artmasının bir neçə səbəbi olduğunu dedi:**

- Günün bəlli saatlarında yollarda tıxaclar yaransa da, ictimai nəqliyyatda gecikmələr yaşansa da, hiss olunur ki, sərnişindaşımada müsbət irəliləyişlər var. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər də bunu deməyə əsas verir. Ölkədə həqiqətən də həm metro, həm də avtobusla sərnişin daşımalarının sayı artıb. Burada ictimai nəqliyyatdakı inkişafı, müsbət dəyişiklikləri, həmçinin taksi xidmətinin də normal fəaliyyətini vurğulamalıyıq. Taksi operator şirkətlərinin sayı çoxdur. Taksilərin də sayı çoxalıb. Bu sahədə şəffaf rəqabətlilik var. Sərnişinlərə seçim imkanı verilir. Hansı taksi xidməti qiymət baxımından daha sərfəlidirsə, vətəndaş onu seçir. Bu amillər avtomobil nəqliyyatı ilə daşınmaların həcmini artırır. Bakıda ictimai nəqliyyatın bir üstünlüyü də metronun olmasıdır. Avtobus da gecikir, taksilər günün saatları və hava şəraiti ilə bağlı qiymətləri qaldırır, metro isə ən rahat nəqliyyat vəsitəsi olaraq qalır. Ona görə də vətəndaşlar metrodan istifadəyə daha çox önəm verir. Metropolitenin stansiyalarının sayının artırılması və yeni stansiyaların əhalinin sıx məskunlaşdığı ərazilərə yaxın inşa edilməsinə diqqət edilməlidir. Yeni stansiyaların tikintisi planlaşdırılarkən elmi təhlillər aparılmalıdır. Elə etməlidirlər ki, yeni stansiyalar sərnişin sıxlığının azaldılmasına xidmət etsin. Bununla yerüstü ictimai nəqliyyatın yükü də azalar, əhali tıxaclardan çox əziyyət çəkməz.

**Məlahət Rzayeva**

# Tibdə inqilab, hərəkət edəcəklər

## Alimlər iflicin müalicəsini tapıblar

**Çağdaş dünyada ən geniş yayılmış xəstəliklərdən biri olan şəkərli diabetin müalicəsində yeni-yeni üsullar kəşf edilir, dərmanlar istehsal olunur. Məlumdur ki, şəkərli diabet bir çox hallarda insulta səbəb olur, nəticədə aşağı ətraflar iflic olur, insan hərəkətliliyini itirir. İsveçrə alimləri iflicin müalicəsini tapıb. Alimlərin sinir hüceyrələrinin kəşfi nəticəsində 9 xəstəyə yenidən addım atmaq imkanı yaranıb. İsveçrə Texnologiya İnstitutunda aparılan araşdırmalarda sinir hüceyrələri xüsusi texnologiya ilə stimullaşdırılıb.**

Fiziki müalicə ilə birləşdirilən bu üsul sayəsində 29-41 yaş arası iflic olan xəstələr ayağa qalxa biliblər. Onurğa beyninin zədələnməsi nəticəsində iflic olan xəstələr üçün bu müalicə üsulu inqilab hesab olunur. Yeriməyə cavabdeh olan sinir hüceyrələri onurğa beynində yerləşir. Onurğa beyni zədələndikdə beyindən gələn siqnallar kəsilir. Ona görə də xəstənin sinir hüceyrələri bütöv olsa da, xəstə yeriyə bilmir.

Bundan əvvəl hollandiyalı alimlər də yeniliyə imza atmışdı. Onlar sağlam sinir hüceyrələrini aktivləşdirəcək elektrik stimullaşdırma metodu hazırlayıb. Xəstənin bədəninə yerləşdirilən implant sayəsində bu sinir hüceyrələri elektriklə stimullaşdırılıb. Bu vaxt xəstələrə intensiv fiziki müalicə tətbiq olunub. Beş ayın sonunda xəstələr gəzdiricinin köməyi ilə addımlar atmağa başlayıblar. Xəstələr uzun müddət əzələlərindən istifadə etmədikləri üçün gəzdiricinin köməyindən yararlanmalı olublar. Almaniyada çalışan türkiyəli həkimlər diabet sahəsində apardıqları araşdırmalar nəticəsində bu sahədə nəhəng sıçrayışa imza atıblar. Türkiyə-Almaniya Səhiyyə Fondunun rəhbəri, doktor Yaşar Bilginin rəhbərliyi altında tədqiqat qrupu yaratdıqları inqilabi dərmanın ilk müsbət nəticələrini əldə ediblər. Türkiyənin "Milliyət" qəzetinin yazdığına görə, Avropa İttifaqının da dəstək göstərdiyi araşdırmanın nəticələri barədə məlumat verən Bilgin bildirib ki, xəstənin yağ toxumalarından insulin hazırlayan beta-hüceyrələr alınaraq xəstənin orqanizminə iynə vasitəsilə yenidən yeridilir. Beləliklə də mədəaltı vəz yenidən öz funksiyasını yerinə yetirməyə başlayır. Bununla da insulin tələbli xəstələr yenidən normal həyat tərzi sürə bilir. Şəkər xəstələri üçün bu günə kimi iki - dərman müalicəsi və ya insulin iynəsi - müalicə metodunun olduğunu deyən Bilgin qeyd edib ki, şəkər xəstələri ömrü boyunca hər gün qanda qlükozanın miqdarını ölçməli, gündə 3-4 dəfə insulin iynəsi vurmalı olurlar. "Biz şəkər xəstələrinin öz yağ toxumalarından biokimyəvi üsulla beta hüceyrələr əldə edəcəyik. Bu hüceyrələr xəstənin öz orqanizminə məxsus olduğuna görə sonralar onlarla bağlı heç bir uyğunlaşma problemi baş verməyəcək. Araşdırmaların ilk mərhələsində yağ toxumalarından quruluşda orqanizmə ən uyğun olanın beta hüceyrələr olduğunu gördük. İnsandakı yağ toxumaları yağları əritməklə bağlı yaddaşa malikdirlər. Beta hüceyrələrinə çevriləcək yağ hüceyrələri xəstənin qan damarlarına ineksiya ediləcək və mədəaltı vəzin hüceyrələri yaşamağa başlayacaqlar. Beləliklə, şəkər xəstələri ömür boyu insulinə möhtac qalmadan istədiyi şəkildə qidalanacaq, normal həyat sürəcəklər. Mədəaltı vəzi yağ toxumalarından alınan beta hüceyrələri ilə fasiləsiz olaraq təmin olunacaq". Bilgin tədqiqatla bağlı bildirib və əlavə edib ki, düzgün qidalanmama, yağlı yeməklər və idmanla məşğul olmamaq xəstəliyin sürətlə yayılmasına yol açır.

Bunca yeniliklər, yeni metodlar, yeni dərman preparatları istehsalının şəkərli diabetin müalicəsində müsbət dəyişikliyə səbəb olduğu görünürmü?

**Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında yeni müalicə üsullarının effektiv olduğunu bildirdi:**

- Bəli, şəkərli diabetin müalicəsində həm müasir dərmanlar, həm fiziki üsullar, həmçinin mədəaltı vəzin funksiyasının yaxşılaşmasına kömək edən cərrahi əməliyyatlar nəticəsində xəstəliyin müalicəsində ciddi irəliləyişlər hiss olunur. Hətta ağırlaşmış xəstələr, 1-ci dərəcəli diabet diaqnozu qoyulmuş xəstələr də sağala bilir. İnsulindən asılı ağır xəstələr üçün də ən müasir müalicə üsulları tətbiq edilir. İstənilən xəstəliyin müalicəsində əsas diaqnozun düzgün təyin edilməsi və ona uyğun düzgün müalicənin təyin edilməsidir. Bunlar olarsa xəstəni xilas etmək, sağaltmaq da asanlaşır. Şəkərli diabet geniş yayıldığından, dünyada bu xəstəliyə tutulanların sayı getdikcə artdığından müalicə üsulları da genişlənir, yeni kəşflər edilir. Dərman preparatları ilə bağlı bunu deyə bilərəm ki, ən yeni molekullar kəşf edilir və onlar şəkərli diabetin müalicəsində müsbət nəticə verir. Amma burada bir məsələ var ki, dərman preparatları məhz xəstəliyin müalicəsində istifadə edilən dərmanlar olmalıdır. Qida əlavələri dərman preparatlarının əvəzləyicisi kimi pasiyentlərə məsləhət görülməməlidir. Mən qida əlavələrinin effektivliyinə inanmıram, onlar akademik təbabətə uyğun deyillər.



*Terapevt Şahvələd Məmmədov: "Hətta ağırlaşmış xəstələr, 1-ci dərəcəli diabet diaqnozu qoyulmuş xəstələr də sağala bilir. İnsulindən asılı ağır xəstələr üçün də ən müasir müalicə üsulları tətbiq edilir"*

**Məlahət Rzayeva**

# Qadının 4 dəfə ərə getməsinə heç kəs qadağa qoya bilməz

## Ancaq bizim cəmiyyətdə evlilik qərarı alan valideynlərin uşaqlarla məsləhətləşmək adəti yoxdur



**13 yaşlı qız anasının dəfələrlə ailə qurmasına görə evdən qaçıb. Bununla bağlı paylaşımı Azərbaycan Uşaq Birliyinin sədri Kəmalə Ağazadə özünün sosial şəbəkə hesabından edib.**

O qeyd edib ki, 13 yaşlı qız Azərbaycan Uşaqlar Birliyi-Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinə dünən gətirilib: "Evdən qaçıb. İlkin məlumata görə, anasının dördüncü dəfə ərə getdiyinə görə evdən qaçıb. Uşağın ilkin qiymətləndirilməsində zob xəstəliyindən əziyyət çəkdiyini müəyyən etdik. Bir çox hallarda tiroid problemləri əsəb sarsıntıları ilə bağlı olur".

**Psixoloq Azad İsazadə "Şərq"ə açıqlamasında deyib ki, evlilik qərarı böyüklərin öz həyatları ilə əlaqədar olan qərardır:** "Hüquqi baxımdan qadının iki və ya dörd dəfə ərə getməsinə heç kəs qadağa qoya bilməz. Hətta övladı belə olsa, qanunla belə bir məhdudiyyətə haqqı yoxdur. Amma valideynlər evliliklə bağlı qərarlarını uşaqla birlikdə olduğu zaman, sakit bir mühitdə söyləsə uşağın rahat reaksiya göstərməsinə kömək edər. İkinci və daha çox evlilik uşaq kiçikkən, ya da yetkinlik dövrü sonrasında reallaşdığı zaman daha az çətinlik yaşandığı müşahidə edilir. Yetkinlik dövründə olan uşaqların buna uyğunlaşması isə çətin olur. Bizim cəmiyyətdə evlilik qərarı alan valideynlərin uşaqlarla məsləhətləşmək adəti yoxdur. Yəni bir çox insanlar üçün uşaqların bu barədə nə düşündüyü heç bir əhəmiyyət kəsb etmir. Amma psixoloji baxımdan əvvəlcədən uşaqla danışıb, evlənəcəyi şəxsi daha öncədən uşağı ilə tanış etmək daha məsləhətlidir. Çünki uşaqlar maksimalist olur və onlar bəzən ata-analarının ikinci ailəsi ilə yaşadığına utanır, özünə qapanır. Bunun qarşısını almaq üçün də ancaq uşaqla daimi maraqlanıb, onun hisslərini ifadə etməsinə şərait yaratmaqdır".

Konkret hadisəyə gəldikdə isə psixoloq hesab edir ki, uşaqda aşkar olunan zob xəstəliyi ilə bağlı anasının fikirləri öyrənilməlidir: "Əgər o, uşağının sağlamlığına biganə yanaşıb, xəstəliyindən xəbərsiz olub, yaxud da bilib müalicə etməyibsə, burada hüquqi məsələ ortaya çıxır. Həmin xanımı analıq hüququndan məhrum edib, uşağı dövlətin himayəsinə vermək lazımdır. İndiki halda isə vacib olan uşağın hüquqi statusunu dəqiqləşdirməkdir. 13 yaşlı bir qız uşağı ömrü boyu sığınacaqda yaşayası deyil ki?! Hələlik uşaq özünü harada təhlükəsiz hiss edirsə, orada qalmalı və anasının yanına qayıtmaq istəmirsə, hüquqi statusu məhkəmə yolu ilə həll olunmalıdır".

**Şəymən Bayramova**




# Odre Azule Fransız əsillidir

## YUNESKO-nun baş direktoru Azərbaycana qarşı həmişə qərəzli mövqe sərgiləyib

**"YUNESKO-nun baş direktoru Odre Azule Fransız əsillidir. O, Fransa "Dauphine" universitetində, həmçinin Parisin siyasi tədqiqatlar İnstitutunda təhsil alıb".**

Bu barədə Mətbuat Şurasının İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli deyib. O bildirib ki, Odre Azule 2014-cü ildə Fransa prezidenti Fransua Ollandın mədəniyyət və kommunikasiyalar üzrə müşaviri olub. Daha sonra ölkənin Mədəniyyət və kütləvi kommunikasiyalar naziri vəzifəsini tutub: "Odre Azule Fransanın mövcud siyasi kursunu tam mənimsəyib, onun icraçılarından biridir. 2017-ci ildə YUNESKO-nun baş direktoru postuna gətirilən Azule bu vəzifədə çalışdığı dövrdə Azərbaycana qarşı ziddiyyətli mövqe sərgiləyib. Tutduğu beynəlxalq statuslu vəzifədən istifadə edərək, Fransanın Azərbaycana qarşı həyata keçirdiyi qarayaxma kampaniyasına töhfə verib. Azərbaycan 44 günlük müharibədə qələbə qazanan kimi, guya bəzi dini-mədəni abidələrin dağılması barədə Ermənistanın iddialarını əsas alaraq, bölgəyə missiya göndərilməsi istiqamətində canfəşanlıq edib. Ölkəmizin mədəni sərvətlərinin Ermənistan tərəfindən dağıdılması və mənimsənilməsi barədə YUNESKO-ya yetərli məlumatlar verilməsinə baxmayaraq, qurum Azərbaycanın mədəni irsinə dəyən ziyanın qiymətləndirilməsi məqsədilə işğal olunmuş ərazilərə missiya göndərməyib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YUNESKO-nun xoşməramlı səfir vəzifəsindən imtinasını YUNESKO-nun bu siyasətinə etiraz kimi də dəyərləndirmək olar".

*Məlumat üçün bildirək ki, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva xoşməramlı səfir kimi fəaliyyətinə xitam verilməsi məqsədilə təşkilatın baş direktoru Odre Azuleyə məktub ünvanlayıb.*

**İsmayıl**

**Elan**

"Global-İnşaat" MMC-yə (VÖEN: 2000024801) məxsus dairəvi möhür 15.11.2022-ci il tarixdə itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən Quliyev Məhəmməd Valeh oğluna verilmiş tələbə smart kartı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Dəniz Agentliyi tərəfindən Ogoke Justin Chibueze Tədqiqat Mühəndisi. Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli əlavələr edilmiş Beynəlxalq Konvensiyaya uyğun olaraq verilən Sertifikat № SO-1395-21 itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3274



## Almedadan xoş xəbər

### Partlayış zamanı yaralanan ana və qızı xəstəxanadan evə buraxılıb

**İstanbulda törədilən terror aktında yaralanan 3 yaşlı Almeda Sinan və anası Dilay Sinan xəstəxanadan evə buraxılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, partlayış zamanı 3 yaşlı Almeda Sinan, anası Dilay Sinan və atası Taner Sinan da orada olub. Partlayışın şiddətindən uşaq arabası uzağa atılıb. Ata Taner Sinan körpəni qucağına alaraq həyat yoldaşı ilə birlikdə hadisə yerindən uzaqlaşmağa çalışıb. Hadisə zamanı ana və 3 yaşlı uşağı yaralanıb.

Yaralı körpə və anası xəstəxanaya aparılıb. Müalicəsi başa çatan Dilay Sinan və qızı Almeda Sinan dünən günorta saatlarında evə buraxılıb.

**Turan**

## Yaponiyada ən yaşlı kişi 111 yaşında vəfat edib



**Yaponiyada ən yaşlı kişi hesab edilən Şiqeru Nakamura noyabrın 15-də 111 yaşında Hiroşima prefekturasındakı Ahıllar evində dünyasını dəyişib.**

Azərtac xəbər verir ki, Ş.Nakamura 1911-ci il yanvarın 11-də Yaponiyanın qərbində yerləşən Cinsekikoqonedə anadan olub. O, 1945-ci il avqustun 6-da ABŞ hərbiçiləri tərəfindən Hiroşimaya atılan atom bombasının törətdiyi dağıntıların aradan qaldırılmasında yaxından iştirak edib.

Müsahibələrinin birində qeyd edib ki, belə sağlam qalmasının səbəbi insanlara olan məhəbbətindəndir.

Ş.Nakamura uzun müddət inşaat sahəsində çalışıb.

Ginnesin Rekordlar Kitabına görə, cari ilin mayına olan məlumata əsasən, hazırda Venesuelada yaşayan 113 yaşlı Xuan Visente Peres dünyanın ən yaşlı kişisi hesab edilir. Onun 1909-cu il mayın 27-də anadan olduğu bildirilir.

Yaponiya Səhiyyə Nazirliyinin məlumatına görə isə, hazırda bu ölkənin ən yaşlı kişisi Çiba prefekturasında yaşayan 111 yaşlı Qisaburo Sonobedir. Yaponiyanın ən yaşlı sakini isə Oskada yaşayan 115 yaşlı qadın Fusa Tatsumidir.



# Bəy toya tabutda gəldi!

## Dəhşətli görüntülər milyonlarla dəfə izlənilib

**Dəfn maşınının arxasından tabutu endirən və daşımaqda çətinlik çəkən qadınlara kişilər kömək edib. Sosial mediada paylaşılan görüntülər qısa zamanda böyük əks-səda doğurub.**

Göl kənarındakı yaşıl sahədə baş tutan toy mərasiminə cənazə maşını yaxınlaşıb. Bir neçə mavi xalatlı qadın və zərif kostyumlu kişi tabutu endirib parad meydanına gətirib. Sosial mediada sürətlə yayılan görüntülər qısa zamanda milyonlarla dəfə izlənilib və tənqid oxlarının hədəfinə çevrilib. Buna səbəb mərasimin yas deyil, toy olması idi.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, qəmgin bəyin qəribə girişi toya gələn qonaqlardan birinin kamerasına düşüb. ABŞ-da baş tutduğu güman edilən toyda adı açıqlanmayan bəyin tükürpədici qara tabutda açıq hava mərasiminə gətirildiyi anlar videolentə alınıb. Bir neçə bəy də gəlinlərə tabutu daşımağa kömək edib.

TikTok-da paylaşılan video qısa müddətdə 8,2 milyon baxışa çatıb. Görüntülərdə gəlinin reaksiyası aydın olmasa da, yeni evlənən kişinin hərəkətləri izləyənlərə təbii ki, xoşagəlməz təsir bağışlayıb.

Videonu TikTok sosial şəbəkəsində @tobz88 istifadəçi adı ilə yerləşdirib və o, görüntüləri Dorotinin "dinclik içində istirahət" mənasını verən Rest In Peace mahnısının müşayiəti ilə paylaşıb. İstifadəçilərdən biri görüntüləri "Bu dəfndir? Yox, dostum belə evlənməyə qərar verib" yazıb. O qeydi paylaşıb.

Videoda gəlinlər və bəylər böyük vaqondan qara tabut çəkərkən görünür. Qəribədir ki, tabutu daşıyan gəlin qrupunun üzvləri toya uyğun paltar geyinirlər.

Şok görüntülərə internet istifadəçiləri tərəfindən şərhlər yazılıb. Bir istifadəçi deyib:

"Hörmət və sığorta"

Mən "hə" deməmişdən əvvəl boşanırdıq.

Digər sosial şəbəkə istifadəçisi "Görüntülər ürəyimi bulandırdı". Başqa bir istifadəçi isə "Toyu dərhal ləğv edərdim" şərhini yazıb.

Digər sosial şəbəkə istifadəçisi isə videoya "Hörmətsizlik və həyasızlıq" şərhini qeyd edib.

Bir çox istifadəçi isə bəyin tabut üçün nə qədər pul xərclədiyini sual edib. Onlardan biri hətta kiçik araşdırma apararaq tabutların adətən 4000 dollardan baha olduğunu bildirib. Digərləri isə toydan



sonra "sevgi quşlarının" tabutu nə edəcəyi ilə maraqlanıblar. Bir istifadəçi bu jestin "şirin" olduğunu iddia edərək izahat verməyə çalışıb.

**İstifadəçi yazıb:**

Əslində çox şirin olduğunu düşündüm. Mən bunu "Səninlə tanış olana qədər ölmüşdüm" və ya "Həyatım səninlə tanış olana qədər başlamamışdı" kimi şərh edirəm.

**Turan**

## Zelenskinin xanımı Qobustanla bağlı paylaşım edib





**Ukrayna Prezidenti Volodimir Zelenskinin həyat yoldaşı, ölkənin birinci xanımı Yelena Zelenskaya Azərbaycanın Qobustan Dövlət Tarixi-Bədii Qoruğu ilə bağlı instaqram səhifəsində paylaşım edib.**

**O vurğulayıb ki, sözügedən qoruqda Ukrayna dilində audiobələdçi də var:**

**"Qobustan 6 mindən çox qayaüstü təsvir tapılmış unikal yerdir. Planetdə incəsənətin yarandığı ilk yerlərin biridir".**

**Zelenskaya bildirib ki, hazırda 32 ölkədə Ukrayna dilində 50 audibələdçi var və bu say gələcəkdə artacaq.**

***Qeyd edək ki, müxtəlif ölkələrdə Ukrayna dilində audiobələdçinin tətbiqi layihəsi Zelenskayanın şəxsi təşəbbüsüdür.***

## "Hansı İpəkdir?"

### Aktrisa bacısına bənzərliyi ilə gündəmə gəlib



**Ötən ay müğənni Ufuk Beydemirlə Romada ailə quran aktrisa İpek Filiz Yazıcı bacısına bənzərliyi ilə gündəmə gəlib.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, "Aşk 101" serialında parlayan aktrisa sosial şəbəkədəki paylaşımı ilə diqqət çəkib.**

**Bacısı ilə çəkdirdiyi selfi pozalarını izləyiciləri ilə paylaşan Yazıcı bacısına bənzərliyi ilə gündəmə gəlib.**

**"Hansı İpəkdir?" və ya "Oxşayırsız!" kimi şərhlər yağıb.**

**2 ilə yaxındır birlikdə olan Yazıcı və müğənni Ufuk Beydemir Romada evləniblər.**

**Turan**



# Ögey atası onu evdən qovdu

## Xəstəxana bağçasında tanış olduğu tibb bacısı isə həyatını dəyişdi



**Ağrıda yaşayan Umut İşıq (41) 20 il əvvəl atası yol qəzasında dünyasını dəyişən zaman anası ilə Adanada yaşamağa gəlib. Bu arada İşıq anasını itirib və ögey atası onu 14 il əvvəl evdən qovub. 1 il Adana xəstəxanasının bağçasında qalan İşığa tibb bacısı kömək edib və Ümid Evinə yerləşdirilib.**

Umut İşıq, "Atam Fevzi İşıq qəza nəticəsində dünyasını dəyişəndə Ağrıdan anamla birlikdə Adanaya gəldim və 20 il onunla yaşadıq. Anam rəhmətə gedəndə ögey atam məni bayıra atdı. Adana xəstəxanasının bağçasında 2008-ci ildə tibb bacısı ilə tanış oldum. Və tibb bacısının sayəsində bura gəldim. Tanış olduğum tibb bacısı Fatma Eroğlu həyatımı dəyişdi. Ümid evinə yerləşməyə kömək etdi. Allah dövlətimizə bərəkət versin. Bura mənə həm ana, həm atadır.

Mənim ailəm dövlətdir, bunları inkar edə bilmərəm. Burada müəllimlərimə müəllim deməyə utanıram. Çünki onlar mənə atadırlar. Boğazım ağrıyanda dərhal müəllimlərimə deyirəm. Dərhal tibb bacılarına deyirlər, mənə baxırlar. Ümid evi mənə ümid verdi. İndi o tibb bacısını görmək istəyirəm. Çox darıxıram. Çox yaxşı insandır. Aksaray yolunda məni qucaqlayıb ağlamışdı" deyə bildirib.

Ümid evinin xüsusi təhsil müəllimi Arif Yıldırım isə bunları söyləyir: "Ümid evləri reabilitasiya mərkəzində qalan insanların sosial həyata uyğunlaşması və öz müstəqil həyatını qazanması üçün həyata keçirilən layihədir. Umut və onun kimi 11 nəfər 2 Ümid Evində qalır. Umut Ağrıda doğulub və atası dünyasını dəyişəndə, anası evlənərək Mersinə köçüb. İstanbulda məskunlaşıb. Anası da dünyasını dəyişib. Ögey atası Umutla anlaşa bilməyib onu küçəyə atıb. Umut Mersindən Adanaya gəlir və bir yuvada - xəstəxananın bağçasında qalmağa başlayır. Bunu dərk edən tibb bacısı sayəsində Ailə və Sosial Siyasətlər Nazirliyinə müraciət olunur. Ayaqları fiziki cəhətdən narahat olduğu üçün hesabat alır və bizim müəssisədə məskunlaşır. Oxuyub yaza bilir, öz işi ilə də məşğul olur. Bundan başqa gözəl mahnılar və xalq mahnıları oxuyur. 10 ildir bir yerdəyik, çox dəyərli insandır. Müəssisədəki hər kəs onu sevir və bundan sonra da sevəcək".

**Turan**

## Adnan Oktar 891 il həbs cəzasına məhkum edib



**Türkiyədə "Adnan hoca" kimi tanınan Adnan Oktara 891 il həbs cəzası verilib.**

"Haberler.com" xəbər verir ki, bir müddət əvvəl barəsindəki hökm ləğv olunan Adnan Oktarın cinayət işinə yenidən baxılıb. Məhkəmə şəxsi cinayətlərinə görə, onu 891 il həbs cəzasına məhkum edib. Təşkilatın lideri olduğu üçün üzvlərin törətdiyi cinayətlərə görə də məsuliyyət daşıyan Adnan Oktar haqqında qərar bütünlüklə oxunduqdan sonra dəqiqləşəcək.

## Yerə daha bir asteroid yaxınlaşır

### Asteroid böyük sürətlə hərəkət edir



**Rusiya Elmlər Akademiyasının Tətbiqi Riyaziyyat İnstitutundan yerli astronom Leonid Yelenin Yerə yaxınlaşan yeni asteroid kəşf edib.**

Bu barədə "İzvestiya" məlumat yayıb.

Qeyd edildiyi kimi, 2022 VG2 adlanan obyektin diametri təxminən 13 ilə 31 metr arasındadır. Bunu Monqolustan Xureltoqot rəsədxanasında yerləşən Rusiyanın ORI-40 teleskopu sayəsində müəyyən etmək mümkün olub. Hələlik kosmik cismin dəqiq kütləsini və formasını müəyyən etmək mümkün olmayıb. Asteroid böyük sürətlə hərəkət edir. NEOCP 2022 xidmətində alınan məlumatların dərcindən sonra VG2 Rusiya, ABŞ və Avropa ölkələrindən onlarla rəsədxana tərəfindən təsdiqlənib. Asteroid Apollon ailəsinin Yerə yaxın, yəni planetimizin orbitindən keçən kimi təsnif edilib.

## Komediya ustasından əyləncəli paylaşım

### "Valideynlər üçün sıradan bir gün"



**Məşhur türk aktyor və komediya ustası Şahan Gökbakar həyat yoldaşı Selin Gökbakarla verdiyi gülməli poza ilə gündəmə gəlib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, sosial mövzularda tez-tez adından bəs etdirən aktrisa və komediya ustası Şahan Gökbakar həyat yoldaşı Selin Gökbakarla fotosunu sosial media hesabında paylaşıb. Selfini paylaşan Gökbakar "Valideynlər üçün sıradan bir gün.. Efenin anası Ela məni taclandırdı..." sözlərini yazıb.

**Turan**